# İSLAMA ÇAĞIRIŞ FƏALİYYƏTİNİN ETİK DAVRANIŞ KODEKSİ: MÖTƏDİL ÇAĞIRIŞA DOĞRU

HİŞAM TALİB

# İslama çağırış fəaliyyətinin etik davranış kodeksi:

*mötədil çağırışa doğru*

Hişam Talib

İDRAK

"İdrak" İctimai Birliyi

**İslama çağırış fəaliyyətinin etik davranış kodeksi:**
**mötədil çağırışa doğru**
*Hişam Talib*

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
fəlsəfə üzrə fəlsəfə doktoru
Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

© "İdrak" İctimai Birliyi, 2022
ISBN: 978-9952-8445-0-4

"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov küç., 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-698/Q)

Bütün hüquqlar qorunur.

# Kodeks ideyası

İdeya, ümumiyyətlə müsəlmanları, xüsusən dəvətçiləri[1] islama çağırış işinin etik davranış kodeksini[2] əmələ gətirən qaydalar və prinsiplər toplusuna əməl etməyə çağırmaqdan ibarətdir. Bu kodeks düşüncə və praktika mədəniyyəti normalarını özündə birləşdirir. O, daha çox məsələdə ortaq məxrəcə gəlməyi, fəaliyyət dairəsinin genişləndirilməsini, fikir ayrılıqları və səhvlərin minimuma endirilməsini təmin edə bilər.

---

[1] Dəvətçi: insanları haqqa, Allahın qoyduğu qaydalara – islama çağıran şəxs – ***tərcüməçinin qeydi.***

[2] Bundan sonra qısaca "Kodeks" adlandırılacaqdır – ***tərcüməçinin qeydi.***

# MÜNDƏRİCAT

Kodeks ideyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
İkinci nəşrə yazılmış ön söz . . . . . . . . . . . . . . . . . . . . . . 9
Birinci nəşrə yazılmış ön söz . . . . . . . . . . . . . . . . . . . . 11
Bəzi təzahürlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
Bəzi amillər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
Qarşılıqlı dəfetmə qanunu . . . . . . . . . . . . . . . . . . . . . . 12
Azadlıq və azadetmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
1967-ci il məğlubiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . 14
Sovet İttifaqının süqutu . . . . . . . . . . . . . . . . . . . . . . . 15
11 Sentyabr hadisəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15
Nəyi dərk etməliyik? . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
Problemlər və xəbərdarlıqlar . . . . . . . . . . . . . . . . . . . . 17
Problemlərin səbəbləri . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Nədən başlamalı? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Daxili və xarici təhdidlər . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Kodeksə olan ehtiyac . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Və... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Kodeks haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Kodeksin məqsədləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Kodeks kimlər üçündür? . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Kodeks bizə nə verə bilər? . . . . . . . . . . . . . . . . . . . . . . 21
Kodeks nə olmağı məqsəd güdür? . . . . . . . . . . . . . . . . . . 22
Kodeks nəyin kodeksi olmaq istəyir? . . . . . . . . . . . . . . . . 22
Kodeksin xüsusiyyətləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . 22

**Birinci mövzu**
**Biz hansı islama çağırırıq?**
**- 24 -**

İlk növbədə tövhid! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24
Tövhid və birlik dini. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
Əsas mənbələrə müraciət . . . . . . . . . . . . . . . . . . . . . . . 26
İslam Allahın dinidir, hərtərəfli dindir . . . . . . . . . . . . . . . 27

İbadət məfhumunun hərtərəfliliyi . . . . . . . . . . . . . . . . . . . . . 28
İslam qardaşlığı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
Güclü mömin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Saxta dindarlıqdan ehtiyat edək . . . . . . . . . . . . . . . . . . . . . . 29
İtaət və asilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30

**İkinci mövzu**
**İslam məsələləri (dini problemlər)**
**- 31 -**

İslama görə ailə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
İslama görə qadın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
İslamda azadlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
İslamda insan haqları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
İslamda bəşəri qardaşlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
Bir-birini tamamlayan iki mənsubiyyət . . . . . . . . . . . . . . . . . 34

**Üçüncü mövzu**
**Dəvət subyektləri (fərdlər və qurumlar)**
**arasındakı münasibət**
**- 35 -**

Dəvət işində inteqrasiya. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
İxtisasa hörmət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Dəvətçilər və üstün mövqelər . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Ortaq “yol” . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
Fikir birliyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Müsəlmanların bir qrupu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Rəsmi və könüllü fəaliyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
Təşkilat işi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
Komanda ruhu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Şura (məşvərət). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Dinc tədavül (ötürülmə) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40
Lazımi səciyyəvilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40
Qiymətləndirək, müqəddəsləşdirməyək . . . . . . . . . . . . . . . . 40
Başqalarına xoş münasibət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
Haqq möhtəkiri deyilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42

**Dördüncü mövzu**
**Dəvət işində inkişaf və ixtisaslaşma**
**- 43 -**

Məqsədlərin müəyyənləşdirilməsi . . . . . . . . . . . . . . . . . . . 43
Gələcəyə doğru. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
Şüurlu yenilənmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
Özəetimad . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Nümunəvilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Dəvət işi dünyada ən şərəfli işdir, çünki peyğəmbərlər onunla məşğul olmuşlar. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Layiq olanların irəliyə çəkilməsi . . . . . . . . . . . . . . . . . . . 47
İltizam zəruridir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47
Narsistlər və ayrılıq anı . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Müsbət abı-hava . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Təsir və maraq dairələri . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Məsuliyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
“Və onlar məsuldurlar” . . . . . . . . . . . . . . . . . . . . . . . 50
Özünü hesaba çəkməyin əhəmiyyəti . . . . . . . . . . . . . . . . . 50

**Beşinci mövzu**
**Dəvət fiqhi**
**- 51 -**

Kollektiv ictihad fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . 51
İxtilaf fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 51
Məzhəb fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Məqsədlər fiqhi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 53
Prioritetlər fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Nəticələr fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Reallıq fiqhi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Mötədillik fiqhi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Faydalar və zərərlər fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . 56
İlahi qanunauyğunluqlar fiqhi . . . . . . . . . . . . . . . . . . . . 57
Tədricilik fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57
Mərhələlilik fiqhi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
Seçim fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
Fitnələrə münasibət fiqhi . . . . . . . . . . . . . . . . . . . . . . 59

**Altıncı mövzu**
**Metodoloji problemlər**
**- 60 -**

İslam və dəvət işi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Ən yaxşı metod . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Ümumi dəvət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61
Quran prinsipləri istinad-mənbədir . . . . . . . . . . . . . . . . . . . . 61
Təcrübələri davam etdirmək . . . . . . . . . . . . . . . . . . . . . . . 61
Aydın yazılar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62
Dəqiq anlayışlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62
Təhlükələr barədə maarifləndirmə . . . . . . . . . . . . . . . . . . . . 63
Həm ixlas, həm də sağlam düşüncə . . . . . . . . . . . . . . . . . . . 63
Normal həyəcan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
İrəli atılmaq cəsarəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Geriçəkilmə cəsarəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
Lazımi sakitlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
Adlara deyil, predmetlərə köklənək . . . . . . . . . . . . . . . . . . . 66
Cəmiyyətimiz müsəlmandır, amma... . . . . . . . . . . . . . . . . . . 66
Yenicə müsəlman olanlar . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Qələbə və məğlubiyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Fitnə və qırğın hədislərinə münasibət . . . . . . . . . . . . . . . . . . 68
Gələcək islamındır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68

**Yeddinci mövzu**
**Məqsədlər və vasitələr**
**- 70 -**

Məqsədlər və vasitələr . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
İstedadlı və dərrakəli tələbələrə qayğı . . . . . . . . . . . . . . . . . 70
Dialoq etikası (ədəb-ərkanı) . . . . . . . . . . . . . . . . . . . . . . 71
Ən pis (şey) məqsədəuyğun olarsa... . . . . . . . . . . . . . . . . . . 71
Lazımi sevinc . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71
Şübhəyə yox! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72
Ərəb dilinin əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . 72
Vasitə və məqsədlər vəhdətdə götürülməlidir . . . . . . . . . . . . . . 73

**Səkkizinci mövzu**
**Metodoloji təhlükələr (xoşagəlməz hallar)**
**- 74 -**

Missiyadır, peşə deyil! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74
Vahid rəhbərlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74
Dəyişiklik yalanları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
Əks-reaksiyalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
Düşüncə israfçılığı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
Təəssübkeşlik və tərəfkeşlik . . . . . . . . . . . . . . . . . . . . . 76
Özünü üstün hesab etmək, lakin... . . . . . . . . . . . . . . . . . 77
Din deyil, adətlər.... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77
Kifayətlənmə, yıxılma və süstlük . . . . . . . . . . . . . . . . . . 77
Mənasız və qeyri-məhsuldar söhbətlər (görüşlər) . . . . . . . . . . . 78
Natamamlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79
Məxfiliyin təhlükələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79
Ümumiləşdirmə təhlükəsi . . . . . . . . . . . . . . . . . . . . . . . 80
Konspirasiya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
Faydalı ziddiyyətlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81

**Son söz**
**- 83 -**

# İkinci nəşrə yazılmış ön söz

İlk dəfə nəşr olunmasından on il sonra Kodeksi yenidən saf niyyətlə, ayıq təfəkkürlə, təkmilləşdirmə istəyi ilə, keçən on ilin hadisələrindən çıxarılmış dərslərə şüurlu münasibət bəsləməklə nəzərdən keçirmək qərarına gəldik. Bu da onu göstərir ki, niyyətimiz Allahın razılığını qazanmaq, məzhəbçilik, qrupbazlıq, irqçilik və əyalətçilikdən uzaq şəkildə ümmətə xidmət etməkdir.

Mahiyyətin təzahürdən, məqsədin vasitədən, məzmunun formadan mühüm hesab edildiyi bu Kodeksi faydalanmaq, üstün və çatışmayan cəhətlərini göstərmək üçün hər kəsin istifadəsinə verilmiş "fəaliyyət planı" adlandırmaq mümkündür.

Kitab belə xoş niyyətlə ikinci dəfə nəşrə təqdim edildi. Yeni nəşrə bəzi mühüm qaydalar əlavə edilmiş, daha dəqiq və konkret olması üçün müəyyən ifadələr yeniləri ilə əvəz olunmuş, bir sıra ixtisarlar aparılmışdır. Bununla da, birinci nəşrindən daha yaxşı nəşr meydana çıxmışdır. Ümid edirik ki, gələcək üçüncü nəşr əvvəlki nəşrlərdən daha yaxşı olacaqdır.

Kodeks xoş tərifə layiq görülmüşdür. Burada mərhum professor Saleh Hissinin səsləndirdiyi tərifə işarə etməklə kifayətlənirik. Bu tərif ehtiram və təqdir ifadə edir, çünki onun müəllifi mühakiməsinin dəqiqliyi, səmimiyyətinin nadirliyi, təfəkkürünün dərinliyi, ədəb-ərkanının gözəlliyi ilə seçilən, şəriətə və hüquqa, islama çağırış işinin xüsusiyyətlərinə hərtərəfli bələd olan şəxsiyyət idi. Bu səbəbdən o, kimisə tərifədiyində komplimentdən istifadə etməz, qarşı tərəf nəyə layiq idisə onu da deyərdi. Allah ona qəni-qəni rəhmət etsin, müsəlmanlara onun kimi alimlər bəxş etsin!

Heç biz də kitabımızın səhvlərdən xali olduğunu iddia etmirik. Səhv etməmək peyğəmbərlərə xasdır. Kim elmə bütünlükdə vaqif olduğunu iddia edərsə, nadandır, çünki elm sahilsiz ümmandır.

Özümə aşağıdakı müdrik kəlamı nümunə götürmüşəm: "Fikrimcə, insan dünən dediyini bugün yazmalıdır; dediyini başqa gün yazarsa, daha yaxşı olar; günlərini artırıb sonra yazarsa, bu, bəyənilən əməl olar; bunu da təxirə salsa, lap əla olar; yox, fikrindən daşınıb, yazmağı bundan da sonraya saxlasa, daha düzgün hərəkət edər. Bu, götürüləcək ən böyük dərslərdəndir. Bu onu göstərir ki, heç bir insan nöqsanlardan uzaq deyildir"[3].

Allahım, Şəninə tərif deyir və Sənə həmd edirəm. Şəhadət gətirirəm ki, Səndən başqa ilah yoxdur; Səndən bağışlanma diləyir, Sənə tövbə edirəm.

Allahın xeyir-duası və salamı peyğəmbərimiz Məhəmmədə, ailəsinə, səhabələrinə olsun!

*Hişam Talib*
*2019*

---

[3] Bu sözlər Qazi Əbdürrəhim Bisaniyə aiddir. Bax: Siddiq ibn Həsən əl-Qənuci. Əbcəd əl-ülum əl-vəşi əl-mərqum fi bəyan əhval əl-ülum / çapa hazırlayan: Əbdülcəbbar Zəkkar. Beyrut: "Dar əl-kütub əl-elmiyyə", 1978, I cild, səh. 70.

# Birinci nəşrə yazılmış ön söz

Müsəlman dünyasında hərtərəfli islam oyanışı prosesi gedir. Bu, müsbət və mübarək hadisə olub ümmətin ayıqlığını, qəflətdən oyandığını, özünü hiss etdiyini, dini ilə qürur duyduğunu, gerilikdən, düşüncə və həyatda asılılıqdan xilas olmağa çalışdığını göstərir.

Allahın istəyi ilə bu proses təhsil almaq və işləmək üçün yad ellərə köçən müsəlman icmaların yaşadığı qeyri-müsəlman ölkələrə də yayılmışdır. Çox şükür, bu icmalar son illərdə sistemli təşkilatçılıq işi barəsində düşünməyə başlamışdır. Bununla da onlar din və dünya işlərində özlərinə yol göstərəcək fiqhi mənbələrə, problemlərini həll edəcək, onları rəsmi orqanlar qarşısında təmsil edəcək idarəetmə qurumuna sahib olacaqlar. Bu ki böyük nailiyyətdir. Baş verənlər göstərir ki, sözügedən icmalar "oxuyan tələbə", "gəzən səyyah", "qazanc dalınca qaçan yoxsul" mərhələsini geridə qoymaq üzrədirlər. Sadalanan subyektlər nə qədər sərbəst və bacarıqlı olsalar da, təsadüfi fəaliyyəti, məhdud imkanları təmsil edirdilər. Onların zəhməti xoşməramlı olsa da, effekti və faydası az idi.

## Bəzi təzahürlər

Bu oyanmanın mühitdən mühitə dəyişən təzahür formaları vardır. Buraya bəzi mühacirlər tərəfindən islam mərkəzlərinin yaradılması, məscidlərin tikilməsi, investisiya şirkətləri və maliyyə qurumlarının təsis edilməsi, mənzil krediti layihələrinin həyata keçirilməsi, jurnal və qəzetlərin buraxılması, tərcümə və naşirlik fəaliyyəti, bu və ya digər qurum tərəfindən islamı təbliğ edən dəvətçilərin göndərilməsi, müsəlman ölkələrində

islam şəriətinin tətbiqini tələb edən qrupların, hansı isə müsəlman ölkəsini işğaldan azad etmək üçün mübarizə aparan hərəkatların meydana çıxması və s. daxildir.

Şübhə yox ki, bütün bunlar sevindirici işlərdir, amma eyni zamanda, sistemləşdirilməsi və təkmilləşdirilməsi lazımdır.

## Bəzi amillər

Bu oyanışı bir çox amillər doğurmuşdur. O, həmçinin fərdi və kollektiv müstəvidə, sistemli və dağınıq, rəsmi və qeyri-rəsmi fəaliyyətin nəticəsidir. Hər şeydən öncə, sözügedən oyanış ümmətin öz kökünə, əslinə qayıtmaq istəyinin təbii ifadəsidir, islamın Allah tərəfindən qorunduğunun aşkar göstəricisidir.

Bu oyanışı öyrənənlər onun nə vaxt başladığını müəyyənləşdirməkdə çətinlik çəkirlər. Çünki bu və buna bənzər oyanış hadisələrinin gah üzə çıxan, gah da gizlənən "köklər"i vardır; bu proses gah özünü göstərən, gah da gözdən itən prosesdir.

Həmçinin dəvət fəaliyyəti keçmişdə də olmuşdur, indi də vardır, gələcəkdə də olacaqdır, onun kəsilməsi mümkün deyildir. Bu proses gah zəifləyir, gah güclənir, gah "səhvə yol verir", gah da "haqlı çıxır", gah "xəstələnir", gah da "sağalır", amma onun daima mövcud olmağı ilahi qanunauyğunluqdur. Allahın qanunauyğunluqları isə heç vaxt yox olmur, dəyişikliyə uğramır.

## Qarşılıqlı dəfetmə qanunu

Uca Allah buyurur:

"Əgər Allah insanların bir qismini, digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır" (əl-Bəqərə, 251).

Allahın lütfü və ədaləti sayəsində bütün ilahi qanunlar, o cümlədən qarşılıqlı dəfetmə qanunu ümumi olub hər kəsə

şamildir; hansı isə fərdə, qrupa, dinə imtiyaz tanınmamışdır. Hər kəs bu qanunlar qarşısında bərabərdir. Kim bu qanunları nəzərə alarsa, kimliyindən asılı olmayaraq nailiyyət qazanar; kim də ki nəzərə almazsa, məyusluğa düçar olar.

Qarşılıqlı dəfetmə qanunu islam çağırışçılarına onlar üçün yaratdığı imkanlarla ümid verir, dünyanı ətalət nəticəsində "çürümək" və "xarab" olmaqdan qoruyur. Bu qanun müsəlman fərdə xatırladır ki, kainatın əsil ağası Allahdır. Bu da öz növbəsində müsəlman fərdin inamını, rahatlığını, təvəkkülünü, fəallığını artırır.

İlahi hikmət bizə öyrədir ki, şərin dərin qatlarında xeyir, xeyrin də dərinliklərində şər gizlənmişdir. Bu da qarşılıqlı dəfetmə qanununu daimi və ümumi qanuna çevirmişdir. Yer üzündə hər bir qüvvə davamlı hərəkətdədir. O həm dəf edəndir, həm də – dəf olunan. Belə hərəkətlilik yaxşılara və pislərə, müsəlmanlara və müsəlman olmayanlara imkan verir ki, ya yaxşılıq, ya da pislik etsinlər. Əlbəttə ki, bu onların həmin qanunu nəzərə alıb-almamaqlarından asılıdır.

## Azadlıq və azadetmə

Müstəmləkəçilik özünün ən güclü vaxtlarında Hicaz, Nəcd, Əfqanıstan və Yəmənin bəzi hissələri istisna olmaqla bütün Müsəlman dünyasını öz caynağına keçirmişdi. Amma ümmət öz torpaqlarını müdafiəyə qalxmış, əlindən gələni edərək azadlığına qovuşmuşdu. Torpaqlarını militarist müstəmləkəçilikdən xilas etdiyi kimi bu gün ondan həm də düşüncələrini mədəni müstəmləkəçilikdən azad etmək tələb olunur.

Mədəni müstəmləkəçilik militarist müstəmləkəçilikdən daha təhlükəlidir. Çünki militarist müstəmləkəçilik torpaq işğal edir, etdikləri göz qabağındadır, odur ki ona nifrət edir və onunla vuruşurlar. Mədəni müstəmləkəçilik isə düşüncəni işğal edir, çox gözə görünmür, hiss olunmur, diqqətdən kənarda qalır;

insanlar onu çox vaxt görmürlər, elə də olur ki, ona valeh olurlar. Bu səbəbdən ümmətin bugünkü vəzifəsi daha mühüm sayılan azadlıq formasını təmin etməkdir. Məsələ həm də ona görə ciddidir ki, mədəni müstəmləkəçiliyin vasitə və üsulları hər gün yenilənir, daha aldadıcı hal alır. İnsafən deməliyik ki, ümmət bu istiqamətdə təşəkkürəlayiq işlər görmüş, mühüm nailiyyətlərə imza atmışdır. Amma mədəni müstəmləkəçilikdən birdəfəlik və həmişəlik xilas olmaq üçün fəaliyyətini davam etdirməli, dayanmamalıdır.

## 1967-ci il məğlubiyyəti

1967-ci il yeni dövrün tarixində dönüş nöqtəsi idi. Həmin gün İsrailə məğlub olmaları ərəblərə psixoloji, ideoloji, siyasi-ictimai və hərbi baxımdan bərk təsir etmişdi. Nəticədə insanlar bu məğlubiyyətin baiskarı olan liderlərə, sistemlərə və bu sistemlərin söykəndiyi ideologiyalara – inqilabçılıq, dünyəvilik, sosializm, liberalizm və bəəsçiliyə[4] nifrət etməyə başladılar. Onlar bu ideologiyalardan bezmişdilər, odur ki alternativ axtarışına çıxıb, islama üz tutdular. Burada təəccüblü nə isə yoxdur. Onlar əvvəl-axır müsəlmandırlar, üstəlik, kütlələr də fərdlər kimidir: möhnət və sınaq günlərində Allaha üz tutarlar.

Demək mümkündür ki, 1967-ci il məğlubiyyəti Müsəlman ümməti üçün təkanverici güc rolunu oynamışdır, çünki bu hadisə onun tarixində mühüm hadisələrdən biri hesab olunur. Bu məğlubiyyətdən sonrakı illərə nəzər salanlar görəcəklər ki, ümmət 1973-cü ildə İsraillə müharibədə məğlubiyyətin yaralarını sarıya bilmiş, 1989-cu ildə isə sovetləri Əfqanıstandan qovmuşdu.

---

[4] Suriya və İraqda iqtidar partiyalarının əsas ideoloji istiqaməti. Ərəb millətçiliyi, pan-ərəbizm, ərəb sosializmi kimi ideyaları özündə ehtiva edən ideologiya – ***tərcüməçinin qeydi.***

## Sovet İttifaqının süqutu

Oyanış bütün dünyada intensivləşməkdə davam etdi. Amma bu intensivləşmə müəyyən səhvlərlə müşayiət olunurdu. Yol verilən səhvlər məkandan-məkana, məktəbdən-məktəbə dəyişirdi. Amma bu, oyanışdakı müsbət və haqlı cəhətlərin üstündən xətt çəkə bilməmiş, intensivləşməni dayandırmamışdı. Daha sonra oyanışı iri addımlarla irəliyə aparan qlobal hadisə baş verdi. Söhbət 1991-ci ildə Sovet İttifaqının dağılmağından gedir. Bu nəhəng dövlət özü-özünü dağıldı. Əvvəllər vahid qurumda birləşmiş dövlətlər indi müstəqil olmuşdu. Sovet İttifaqının yıxılması ilə allahsızlığa söykənən kommunizm ideologiyası da süqut etmişdi. Bu ideologiya səbəbindən sovetlər ümumiyyətlə dinlərə, xüsusən islama düşmən idilər. İslamın və müsəlmanların uzun müddət əziyyət çəkdiyi bir sistem artıq yox idi. Bununla da islama çağırış işinin qarşısında geniş imkanlar açılmış oldu. Dağılmış dövlətin ərazisində dəvət işi aparıldı. SSRİ-nin dağılması da qarşılıqlı dəfetmə qanununun nəticəsi idi.

## 11 Sentyabr hadisəsi

SSRİ-nin dağılmasından on il sonra üçüncü "zəlzələ" baş verdi: 2001-ci ildə Nyu-Yorkda Ümumdünya Ticarət Təşkilatının iki göydələni partladıldı. Bu partlayışın necə baş verməsi ətrafında çoxlu ssenarilər mövcuddur, hər bir halda, o, dünya tarixinin tapmacalarından biridir. Bu hadisədən sonra ABŞ Əfqanıstan və İraqı işğal etdi, islamı, ümumiyyətlə dünyada, xüsusən Avropa və ABŞ-da ən çox danışılan mövzu halına gətirmiş çağırışlar (informativ, siyasi, iqtisadi, mədəni, hərbi) baş verdi. İslama münasibət bildirənlərin əksəriyyəti onun haqqında ya bilmədiklərindən, ya da qərəz üzündən olmazın şeylər danışırdılar. Bu din haqqında insafla fikir bildirənlər olduqca

az idi. Özündə həm xeyri, həm də şəri birləşdirən bu söhbətlərin yaxşı tərəfi o oldu ki, çoxları islamla maraqlanmağa başladı. Bu da öz növbəsində, dəvət sahəsində çalışanlar qarşısında islamı daha düzgün şəkildə ictimaiyyətə çatdırmaq imkanları açmışdır. Bunun özü də qarşılıqlı dəfetmə qanununun nəticəsidir.

Sanki Ali İlahi Hikmət baş verən və baş verəcək qlobal hadisələrlə yer üzünün “şumlanması”nı istəyir. Belə olduqda yer üzü Onun dininə üz tutacaq hala gəlir, bəşəriyyətin zəlalətdən hidayətə, bədbəxtlikdən xoşbəxtliyə çıxması üçün imkan yaranır.

## Nəyi dərk etməliyik?

Məsələ nə olursa-olsun, ümmət aşağıdakıları yaxşı şəkildə dərk etməlidir:

Bacarıqlı və səmimi dəvətçilər mövcud vəziyyəti düzgün qiymətləndirməsələr, islamı bəşəriyyətə tanıtmaq üçün yaranmış bu nadir fürsət, şübhə yox ki, itiriləcəkdir;

İlahi Qanunauyğunluqlar ümmətə sadəcə müsəlman olduğu üçün məccani qələbə bəxş etməyəcəkdir;

Ümmətin bacarıqlı, ixlaslı, özünü dəvət işinə həsr etmiş oğulları islama çağırış işindəki yanlışlıqları diqqətlə öyrənməyə tələsməlidirlər. Nəticədə həmin səhvlər təkrarlanmayacaq, təkrarlanarsa da, az itki ilə aradan qaldırılacaqdır;

İslama çağırış işinin yeni perspektivləri, vasitə və üsulları haqqında düzgün proqnoz verilməlidir. Belə olarsa, çağırış işi donuqlaşmayacaq, ətalət və natamamlığa tuş gəlməyəcəkdir;

İslama çağırış işini düzgün istiqamətdə aparmaq üzərində çalışmaq lazımdır;

Dəvət işi icraçıları həmrəy olduqları məsələlərin sayını artırmaq, mübahisəli məsələləri azaltmaq barədə düşünməlidirlər.

## Problemlər və xəbərdarlıqlar

İslam oyanışı özü ilə birlikdə sevinc və ümid gətirmişdir. İnsanlar bu oyanışa görə arzu və xəyallarını dilə gətirməyə başlamışlar.

Tam təsəvvür hasil olsun deyə qeyd edirik ki, bu xoşməramlı hadisə onun hərəkətini ləngidən bir çox problemlərlə əhatələnib.

Bir də görürsən ki, bir dəvətçi digərinə müxalif olur, düşmən kəsilir, tələlər qurur. Bununla da fitnə-fəsad meydana çıxır, ədavət çoxalır, parçalanma genişlənir. Nəticədə belə bir təsəvvür yaranır ki, sanki, müsəlmanlar, o cümlədən dəvətçilər arasındakı ixtilaf xroniki xəstəlik, labüd həqiqət və ancaq Allahın istədiyi kimsələrin xilas ola bildiyi öldürücü xəstəlikdir.

Həmçinin bir sıra addımlar səmimiyyətlə olsa da, düzgün atılmamışdır. Bəzən lazım olmayan yerdə addımlar atılır; zəruri işlər qala-qala, zəruri olmayan məsələlərə zəhmət çəkilir; elə də olur ki, çəkilən zəhmət özü ilə ancaq zərər gətirir.

Bununla yanaşı, dəvət sahəsində işləyənlərin çoxuna sadəlövhlük və xeyirxahlıq hakimdir. Belə sadəlövhlük və xeyirxahlıq öz növbəsində bixəbərlik və qafilliyə səbəb olur. Nəticədə bu dəvətçilər pis niyyətli şəxslər tərəfindən dolaşdırılır, özlərinə və ölkələrinə zərər gətirən düşünülməmiş və avantürist hərəkətlərə sürüklənirlər. Sadəlövhlüyün doğurduğu axmaq hərəkətlər üzündən cəmiyyətdə dəvətçilərə, islama nifrət yaranır, insanlar islamdan qorxmağa başlayırlar. Bəlkə də, həmin dəvətçilər ən böyük nadanlığı siyasət meydanında göstərirlər. Onlar bu meydanda əmək sərf edib fədakarlıq göstərsələr də, sonralar onun ilk qurbanına çevrilmişdilər. Özü də təkcə onlar deyil, həm də ölkələri, həmvətənləri ağır bədəl ödəmişlər.

## Problemlərin səbəbləri

Belə bir hadisəni tək səbəb deyil, mürəkkəb səbəblər məcmusu meydana çıxarmışdır. Sadəlövhlük, bixəbərlik, tələskənlik, spontan addımlar, asanlıqla dolaşdırılma və oyunagəlmə, İlahi Qanunauyğunluqları nəzərə almama, dinin şəxsi istəklərə alət edilməsi, dəvət sahəsində bəzi şəxslərin var-dövlət və vəzifə hərisi olmağı, düşüncə və qavrama qabiliyyətinin insandan insana dəyişməsi, ümmətin şahidi olduğu tarixi mərhələnin xarakteri – bütün bunlar səbəblər kompleksini əmələ gətirir.

Əgər səbəb çoxdursa, onda problemlərin həlli üçün bir deyil, birdən artıq həll variantı haqqında düşünməliyik. Kompleks həll üsulu belə mürəkkəb problemi aradan qaldıra bilər.

## Nədən başlamalı?

Həll variantları arasında birinci dərəcəlisi dəvətçilərlə əlaqəli ümumi qaydaların təshih edilməsidir.

Çünki qaydalar böyük ölçüdə insan oğlunun nəyə isə dair təsəvvürlərini, mühakimə və düşüncə tərzini, atacağı addımların səbəblərini tənzimləyir.

O da məlumdur ki, səhv təsəvvür – səhv davranışa, düzgün təsəvvür isə düzgün davranışa səbəb olur.

Əlbəttə ki, kimsə sadəcə qaydaları təshih etməklə bu problemin bütövlükdə həllini tapacağını iddia etmir. Amma problemlə əlaqəli gərgin vəziyyətin böyük ölçüdə yüngülləşməsi mümkün olacaqdır.

Ümmətin yol göstərilməyə, düzəlişə, məsləhətə, təftişə böyük ehtiyacı vardır.

## Daxili və xarici təhdidlər

Sözügedən oyanış xaricdən olduğu kimi daxildən də müəyyən təhdidlərlə üz-üzə qalıb. Daxili təhdid xarici təhdiddən daha təhlükəlidir. Keçmişdə də, indi də belədir.

Əgər xarici təhdid islamın düşmənləri tərəfindən müxtəlif vasitələrlə meydana çıxmışsa, daxili təhdid ümmətin daxilində yaranmışdır. Bunun səbəbi yanlış fəhm, natamam düşüncə, xəstə xarakter, şeylərin təbiəti ilə üst-üstə düşməyən tələskənlik, qeyri-real, idealist yanaşma və sair ola bilər.

## Kodeksə olan ehtiyac

Dəvətçilərə təqdim ediləcək etik davranış kodeksinin hazırlanmasına bu səbəbdən böyük ehtiyac vardır. Bu kodeks hər kəsə, yaxud əksəriyyətə şamil edilməsi mümkün qaydaları özündə birləşdirəcəkdir. Həmçinin o, bütün dərrakəli və cəfakeş insanlar üçün ortaq sayılan aspektləri müəyyən edəcək, müştərək fəaliyyətdə plüralizmə (çoxçeşidliyə) imkan verəcəkdir. Axı insanların hər bir işdə bir-birini təkrarlamağı qeyri-mümkün məsələdir. Bu baxımdan aşağıdakı şüarlardan çıxış etmək mümkündür: "Birlik daxilində çoxnövlülük!" və "Növ müxtəlifliyə "bəli", ziddiyyət müxtəlifliyinə "yox!"

Bu səbəbdən, əmanət məsuliyyətini hiss edərək, məsləhət, yeniləmə və düzəltmə vəzifəsini yerinə yetirməklə etik davranış kodeksini təqdim etmək bizim üçün xoş olardı. Hesab edirik ki, Kodeksi düzgün başa düşüb ondan istifadə etmək müsəlman ümmətini irəliyə apara, lazımi nəticələrin qazanılmasına səbəb ola bilər.

# Və...

Ümidvarıq ki, Kodeks dəvətçilərə yol göstərən işıq olacaqdır. Əlbəttə ki, Kodeksin onlara azad seçim, könüllü iltizam, iradə, möhkəm inam və heyranlıq nəticəsində işıq olmağından danışırıq.

Ona da ümid edirik ki, Kodeks bacarıqlı və cəfakeş dəvətçilər tərəfindən ciddi şəkildə öyrəniləcəkdir. Qoy onlar hər nəşr əvvəlkindən yaxşı olsun deyə Kodeksdəki səhvləri göstərib yeni qaydalar təklif etsinlər.

Allahım, bizi razı qalacağın işlərdə müvəffəq et! Bizi xeyrin xidmətinə ver! Bizə düzgün və saf niyyət bəxş elə! Sənə Sən razı qalanadək həmd olsun! Sənə razı qaldığında həmd olsun! Sənə razı qaldığından sonra həmd olsun!

Allahın xeyir-duası və salamı böyüyümüz Məhəmmədə, ailəsi və səhabələrinə olsun!

*Hişam Talib*
*2009*

## Kodeks haqqında

Qeyd edək ki, bu qaydalar zəhmətin, yoxlamanın, dəvət sahəsində haqlı və yanlış məsələləri davamlı və uzun-uzadı öyrənməyin səmərəsi kimi meydana çıxmışdır.

## Kodeksin məqsədləri

Kodeks hər kəsin həmrəy olacağına, qəbul edib ehtiram göstərəcəyinə ümid etdiyimiz bir sıra qaydaların müəyyənləşdirilməsini məqsəd güdür.

Kodeksin məqsədini bir cümlə ilə ifadə etmək istəsək, deyərik: "Dəvət işinin gedişinə düzəliş vermək, dəvətçiləri bir-birinə yaxınlaşdırmaq, dəvət işinin yeni perspektivlərini müəyyənləşdirmək".

## Kodeks kimlər üçündür?

Kodeks hər kəs, ilk növbədə, dəvətçilər üçün nəzərdə tutulmuşdur. Çünki Kodeksdən istifadəyə ən çox layiq olanlar, ona düzəliş verib əlavələr etməyə ən çox haqqı çatanlar məhz dəvətçilərdir.

## Kodeks bizə nə verə bilər?

Kodeksə əməl olunarsa, bir çox nailiyyətə imza atılacaqdır. Ən mühüm nailiyyətlərə aşağıdakıları göstərmək olar:

1) Dəvətçilər arasında sevgi və inam hissinin yayılması, islama çağırış işində rəsmi və qeyri-rəsmi fəaliyyət istiqamətlərinin bir-birinə yaxınlaşdırılması;

2) İxtilaf və yanılma dairəsinin kiçildilib, uyğunluq və haqlılıq dairəsinin genişləndirilməsi;

3) Yaradıcı tənqidə, mühakimə və düşünməyə təşviq, yaradıcılıq və yeniləmə perspektivlərinin proqnozlaşdırılması;

4) Həmrəy məsələlərdə əməkdaşlıq etmək, mübahisəli məsələlərdə tolerant davranmaq, ətalətdən fəaliyyətə keçmək.

## Kodeks nə olmağı məqsəd güdür?

Kodeks istəyir ki:

1) Qurani-Kərim və Pak Sünnədən irəli gələn "iş dəftəri" olsun;

2) İfrat və laqeydlikdən uzaq olub, mötədilliyi təmsil etsin;

3) Hansı isə partiyaya, bloka, camaata, dəvət məktəbinə, regional hakimiyyətə xas olmasın;

4) Dəvətçilər üçün fikri, əxlaqi, pedaqoji-elmi nizamnamə, etimad bəsləyib təsdiqlədikləri "hilfi-füzul"[5] olsun;

5) Bu vaxta qədər mövcud olmuş kodekslər arasında yeniliyi ilə seçilən "keyfiyyət əlavəsi" rolunu oynasın.

## Kodeks nəyin kodeksi olmaq istəyir?

Kodeks aşağıda qeyd edilənlərin kodeksi olmağı məqsəd güdür:

1) Dünya və axirətdə xoşbəxtliyimizin mənbəyi olan islamın;

2) Aid olduğumuz və aidliyimizlə fəxr etdiyimiz ümmətin;

3) Həyatda ən şərəfli fəaliyyət hesab olunan çağırış işinin (***dəvət***);

---

[5] Ali dəyər və məziyyətlərin (fəzilətlərin) mühafizəsi anlaşması mənasını verir. Cahiliyyət dövründə bir sıra ərəb qəbilələri razılaşıb əhd bağlamışdılar ki, Məkkədə nə məkkəliyə, nə də qeyri-məkkəliyə zülm olunacaqdır. Əgər kiməsə zülm olunarsa, məzlumun haqqını müdafiə edəcək, zalıma qarşı çıxacaqdılar ki, zülm aradan qalxsın. Qüreyş bu müqaviləni "Hilfi-füzul" adlandırmışdı – ***tərcüməçinin qeydi.***

4) Dini, dili, ənənəni, insanları, keçmişi, indini və gələcəyi özündə birləşdirən vətənin;

5) Daha düzgün hərəkət edib daha az səhvə yol versinlər deyə dəvətçilərin gələcək nəsillərinin.

## Kodeksin xüsusiyyətləri

Kodeksin dəqiqliyi, obyektivliyi, qərəzsizliyi, bitərəfliyi, mötəbərliyi, aydın və elmi üslubu ilə seçilməsi üçün əlimizdən gələni etmişik. Bu səbəbdən oxucu Kodeksin arxasında xeyirxah ruhun, geniş qəlbin, islama xidmət istəyinin dayandığını hiss edir.

# Birinci mövzu

# Biz hansı islama çağırırıq?

## İlk növbədə tövhid!

Uca Allah buyurur:

“(Ya rəsulum) De: “Şübhəsiz, rəbbin məni doğru yola, həqiqi (düzgün) dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahimin dininə yönəltdi!”

De: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin rəbbi Allah üçündür!

Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!” (əl-Ənam, 161-163).

Biz Allaha, kainatı yaradıb idarə etdiyinə, ibadətə layiq yeganə məbud olduğuna inanırıq. Həmçinin Onun böyüklük, kamillik və gözəllik atributlarına, hər növ nöqsan və çatışmazlıqdan xali olduğuna iman gətirmişik. Biz Onu tək bilir, uca tutur, Ondan qorxur və Ona ümid bəsləyirik.

Ümumiyyətlə bütün müsəlmanları, xüsusən dəvətçiləri fəhm, inanc, şüur və davranış olaraq əqidə (etiqad) mövzusuna birincilik verməyə çağırırıq. Etiqad dinin bütün məsələlərinin ilk əsasıdır. Bu əsas həmin məsələləri, həmçinin hər bir işdə müsəlmanın həyatını davamlı şəkildə müşayiət edir.

Etiqad müsəlmanın oxuduğu və digərinə keçmək üçün bitirdikdən sonra qatlayıb bir kənara atdığı kitabın hansı isə fəsli deyildir. Etiqad müsəlmanın oxuduğu ilk fəsildir; elə ilk fəsil ki, digər fəsilləri oxumağa başladıqda onu həmişə yadına salır.

Etiqad müsəlmanı müşayiət edən, dünyadan köçənədək bütün həyatını tənzimləyən fikri və mənəvi, eləcə də əməli haldır.

Bu da öz növbəsində etiqadın bizdən nəyi tələb etdiyini dəqiq və hərtərəfli şəkildə bilməyimizi zəruri edir. Buraya Allahı tək bilmək, Onun ibadətə layiq tək məbud olduğunu qəbul etmək, hökmlərini tətbiq etmək və sair daxildir. Həmçinin müsəlman etiqadı nəyin puça çıxardığını yaxşı bilməlidir. Söhbət insanı dindən qismən və tam çıxaran davranış və sözlərdən gedir. Qəribədir ki, İslam dünyasında müsəlman uşaqlar dəstəmazı nəyin pozduğunu əzbərə öyrənsələr də, etiqadı puça çıxaran söz və əməlləri əzbərə öyrənmirlər. Əlbəttə ki, hər biri lazımdır, amma birinci ilə ikinci arasındakı fərqi də yaddan çıxarmaq olmaz.

Digər tərəfdən, tövhid mövzusu quru, hərfi və mexaniki əzbərə çevrilməməlidir. Bəzən bu cür əzbərin daşıyıcıları ancaq özlərini hidayət olunmuş hesab edir, qürrələnib lovğalanır, başqaları ilə kobud və yekəxana davranırlar.

Onların öz haqq mövqelərinə inanmağı tərifəlayiqdir, amma bu inam, həm də başqalarına hüsn-rəğbətlə müşayiət edilməlidir. Belə olduqda onlar nifrət olunan deyil, sevilən, sərt deyil, rəhmdil dəvətçilərə çevriləcəklər və tövhid onların həyatında düşüncə, mənəviyyat və davranış sarıdan ən düzgün formada öz əksini tapacaqdır.

Bəzi alimlər tövhidin (lə iləhə iləllah) həyata keçirilməsi şərtlərini yeddi sözlə xülasə etmişlər: nadanlığın əksi olan bilik; şəkkin əksi olan yəqinlik; şirkin əksi olan ixlas; münafiqliyin əksi olan sözübütövlük; inkarın əksi olan iqrar; itaətsizliyin əksi olan itaət; sevgisizliyin əksi olan sevgi.

## Tövhid və birlik dini

İslam tövhid və birlik dinidir. Müsəlman ümməti tək Allah inancına tapındığı kimi həmrəy hərəkət etməli, səylərini birləşdirməlidir. Bu cəhətdən dəvət işi "düşüncə, şüur və əməldə birlik" çağırışını diqqət mərkəzində saxlamalı, düşüncə, şüur

və əməldə parçalanmaqdan müsəlmanları çəkindirməlidir. Birlik güc, lütf, bərəkət və aktivlik deməkdir, parçalanma isə bunun əksidir.

Dəvət işində qazanc və uğurlarımız əziyyətimiz və fədakarlığımızdan azdır. Bunun səbəbləri çoxdur. Səbəblərin başında islam fəaliyyətinin bəzən nifrət və ədavət səviyyəsinə çatan parçalanmadan əziyyət çəkməsi gəlir. Birliyi təmin etmək, yaxud buna töhfə vermək üçün niyyəti təkcə Allah naminə etmək, hər kəsə sevgi ilə yanaşmaq, əqidə və fiqhin ikincidərəcəli məsələlərində mübahisəyə son qoymaq lazımdır. Əvvəlki nəsillərin fikir ayrılığına düşdüyü məsələlər üstündə, təəssüf ki, sonrakı nəsillər bir-biri ilə çəkişir. Halbuki bu məsələlərdə haqlı çıxana savab yazılır, yanlışlığa yol verən isə üzrlü hesab olunur, – bu qaydanı yaddan çıxarmaq olmaz.

## Əsas mənbələrə müraciət

Uca Allah buyurur:

"Onlara (münafiqlərə bəzi müsəlmanların sadəlövhlüyü üzündən döyüş meydanından) əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər (müsəlmanlar) bunu (münafiqlərə deyil), Peyğəmbərə və ya özlərindən (möminlərdən) olan ixtiyar (əmr) sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan (belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını təyin etməyə qadir olan) kimsələr bilərdilər. Əgər Allahın lütfü (mərhəməti) üzərinizdə olmasaydı, şübhəsiz ki, az bir qisminiz müstəsna olmaqla, Şeytana uyardınız" (ən-Nisa, 83).

Bütün insanlara yaxşılıq arzuladığımıza və bizə onları xeyirxahlığa çağırmaq tapşırıldığına görə deyirik: ey insanlar, xeyri (xeyirxahlığı, yaxşılığı) onun əsas mənbələri vasitəsi ilə tanıyın! Qoy onlar cani-dildən həmin mənbələrə müraciət edib əmin olsunlar ki, orada azmadan sonra doğru yolu, puçluqdan

sonra həqiqəti, qorxudan sonra əmin-amanlığı, narahatlıqdan sonra xatircəmliyi, müsibətdən sonra yaxşı xoşhallığı tapacaqlar. Həmçinin onlar orada problemlərinin həllinə və cavablara rast gələcəklər.

## İslam Allahın dinidir, hərtərəfli dindir

Uca Allah buyurur:

"Allah yanında (haqq olan) din, əlbəttə, islamdır" (Ali-İmran, 19);

"Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!" (Ali-İmran, 85).

İman gətirmişik ki, islam Allahın əbədi, qorunmuş, doğru və sonuncu dinidir. O bizim üçün kimlik, həll, keçmiş, indi və gələcək deməkdir, dünya və axirətdə xoşbəxtliyimizə aparan yoldur; o bizim üçün həyat tərzidir. Biz ona inanırıq, onunla fəxr edirik, onun yolunda çalışır, onun naminə özümüzü fəda edirik.

İslam Allahın bəşəriyyətə göndərdiyi sonuncu dindir. Bu baxımdan o, həyatın bütün məsələlərini fərd, cəmiyyət və dövlət müstəvisində tənzimləyən hərtərəfli üsuldur; o, dindir, dövlətdir, qanundur, ibadətdir, iqtisadiyyatdır, əxlaqdır, səhiyyədir, ailədaxili, ictimai və beynəlxalq münasibətlərdir və s. O, insan oğlunu doğuluşdan ölümə, hətta yenidəndirilməyədək müşayiət edir. Bu səbəbdən dəvətçilər islamın hərtərəfliliyi məsələsinə əhəmiyyət verməli, onu ibadət ayinləri ilə məhdudlaşdıran nöqteyi-nəzəri rədd etməlidirlər. Bu da zəruri edir ki, dinin başlıca məsələləri və ümumi prinsiplərini bir kənara atıb ikincidərəcəli mövzuları içərisində itib-batmaq olmaz. Yox, dinin ikinci dərəcəli hansı isə məsələsinə toxunmaq ehtiyacı yaranarsa, bu, yerində, vaxtında və lazımi ölçüdə olmalıdır.

## İbadət məfhumunun hərtərəfliliyi

İnsan oğlunun mövcudluğunun başlıca məqsədi Uca və Böyük Allaha ibadət etməkdən ibarətdir:

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (əz-Zariyat, 56).

İbadət məfhumuna hərtərəfli yanaşmaq bizi Allaha daha çox itaət edən, onunla əlaqədən xoşhal olan, başqa insanlara və ölkələrə faydası toxunan fərdlərə çevirəcəkdir. Təəssüf ki, ibadət anlayışı bir çoxunun nəzərində ayinlərlə məhdudlaşır. Onlar ibadət dedikdə ayin başa düşürlər. Qeyd edilməlidir ki, islam fikrindəki ənənəvi təsnifat: əqaid[6], ibadətlər və sosial münasibətlər bölgüsü təhsilin tələblərindən irəli gələn elmi təsnifatdır. Bu təsnifatda bəziləri ibadəti ayinlərə təhkim etmişlər. Bu, böyük səhvdir, bir tərəfdən, yanlış fəhmin yayılmasına, digər tərəfdən, ayinlərdə ibadət aspektinin digər aspektlərdən daha çox qabardılmasına gətirib çıxarmışdır. Bu səbəbdən biz də, əməlisaleh əcdad kimi, ibadət məfhumunun çoxmənalı məfhum olduğuna iman gətirmişik, odur ki hər bir müsəlmanı hərtərəfli ibadət anlayışını qəbul etməyə çağırırıq. O hərtərəfli ibadət anlayışını ki, etiqad məsələlərini, siyasəti, ayinləri, sosial münasibətləri, yer üzünün abadlaşdırılması vəzifəsini, missiyanın təbliğini, halal həzzi, istirahəti, (bir şeyi) bacarıqla etməyi, yaxşılığı və yaxşıcasına etməyi özündə birləşdirir.

## İslam qardaşlığı

İslam qardaşlığı dinin prinsiplərindən, dəvət işinin əsaslarından biridir. Qardaşlıq səmada ilahi razılığa, yerdə isə ilahi inayətə (köməyə) səbəb olar. Qardaşlığın olmamağı isə səmada Allahın qəzəbinə, yerdə isə tənha və köməksiz qoyulmağa gətirib çıxarar. Dəvətçilər həm nəzəri, həm də əməli müstəvidə

[6] Dinin etiqad əsaslarından bəhs edən nəzəri biliklər – ***tərcüməçinin qeydi.***

bu prinsipə əhəmiyyət verməli, qardaşlığa xələl gətirən istənilən şeydən ehtiyat etməlidirlər. Qardaşlıq lütfüdür, zəfərdir, köməkdən xəbər verən müjdədir. Bunun əksi isə kədərdir, daşürəklilikdir, xudbinlik, köməksizlik və məğlubiyyətdən xəbər verən xəbərdarlıqdır.

## Güclü mömin

Güclü mömin yetişdirməyə səy göstərməliyik. Çünki güclü mömin, hədisdə deyildiyi kimi, Allaha zəif mömindən daha əzizdir. Əqidənin möhkəmliyi sağlamlığı ilə, imanınkı dərinliyi ilə, davranışlarınkı düzgünlüyü ilə, ağılınkı şüurluluğu ilə ölçüldüyü kimi bədənin möhkəmliyi də güclü olmağı ilə ölçülür. Bu da orqanizmimizə hərtərəfli qayğı göstərməyi tələb edir. Bunun üçün qidalanmağımıza, təmizliyimizə, fiziki təmrinlərimizə... diqqət yetirməli, alkoqollu içkilər, siqaret, narkotik və sairdən uzaq durmalıyıq. Bunun faydaları çoxdur. Bu faydalardan biri budur ki, sağlam orqanizm dəvət işinin məsuliyyətini bacarıq və qayğıkeşliklə daşıya bilir.

## Saxta dindarlıqdan ehtiyat edək

Düzgün dindarlıq ayıq ağıl, sağlam könül deməkdir. Belə dindarlar insanlar arasında barmaqla göstərilər, başqalarının bəyənib yamsıladığı xoş nümunəyə çevrilərlər.

Biz bu cür dindarlığa çağırış etdiyimiz halda, onun əksi olan saxta dindarlıq barədə xəbərdarlıq edirik. Saxta dindarlıq əqli pozğunluğun, xəstə könüllərin məhsuludur. Belə dindarlıq müəyyən istək və maraqlar üçün vardır. Bu cür dindarlar insanlar arasında sevilməz, pis nümunə əmələ gətirərlər.

Saxta dindarlıq Allahın dinindən imtinaya səbəb olan amillərdən biridir. Belə dindarlığın mənfi nəticələri dindar olmayanların etdiyi günahların nəticələrindən daha pisdir.

Saxta dindarlığın səciyyəvi cəhətlərindən biri üzdə kamillik, içdə səhlənkarlıqdır, vacib əməllərdən çox nafilə əməllərə diqqət göstərməkdir, ümumi maraqları bir kənara atıb şəxsi mənafeyi əsas götürməkdir.

Saxta dindarlar öz istəklərinə, ədavət və bacarıqsızlıqlarına dini don geydirər, layiq olmadıqları yerlərə göz dikər, möhtərəm məqamlara yüksəlmiş şəxsləri gözdən salarlar.

## İtaət və asilik

Əzalar kimi qəlb də həm itaət, həm də günah edər. Qəlbin əməlləri əzaların əməllərindən qabaqdır. Çünki bu əməllər qəlblə əlaqəlidir, qəlb isə insanın cövhəridir; itaətə, yaxud günaha insanı məhz qəlbi sövq edir.

Qəlbin asiliklərindən xilas olmaq əzaların asiliklərindən xilas olmaqdan daha çətindir. Qəlbi itaət etdirmək əzaları itaət etdirmək qədər asan deyildir.

Müsəlman günahdan uzaq olmalı, həm qəlbi, həm də əzaları ilə Allaha boyun əyməlidir. Belə olduqda görünüş ilə mahiyyət, məzmunla forma, niyyətin düzgünlüyü ilə bədənin əməlləri arasında lazımi ahəng baş verəcəkdir.

# İkinci mövzu

# İslam məsələləri (dini problemlər)

## İslama görə ailə

Uca Allah buyurur:

“Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır (daşdan düzəlmiş bütlərdir)” (ət-Təhrim, 6).

Kişi və qadın arasında evlilik ailə qurmada yeganə qanuni yoldur. Ailə tərbiyə üçün ən birinci və ən mühüm yerdir, ümmət qurumunda ən böyük əsasdır, uşaqlar və böyüməkdə olan nəsil üçün təbii və anadangəlmə beşikdir. Ailəni idarə etmək məsuliyyəti həm atanın, həm də ananın boynuna düşür. Bu səbəbdən biz ailənin qorunmasına, dəyərinin uca tutulmasına, uğur qazanması üçün tələb olunan bütün imkanların səfərbər edilməsinə çağırır, onu ləğv etmək, yaxud sarsıtmaq üçün edilən bütün cəhdlərə qarşı çıxırıq.

## İslama görə qadın

Bu gün müsəlman qadını iki radikal tərəfin zülmündən əziyyət çəkir. Birinci tərəf onu korlamağa, dinindən, təbiətindən, şərəf-izzətindən uzaqlaşdırmağa səy göstərən radikal dünyəvilikdir. Müsəlman qadınını mumiyalamağa, dondurmağa, “karantin”ə almağa, həyatdakı vəzifəsini yerinə yetirməyinə mane olmağa çalışan ikinci tərəf isə ifrat (radikal) dindarlıqdır. Belə dindarların niyyəti yaxşı olsa da, əməlləri qınanmalıdır. Əksəriyyətinin qadına olan baxışına şəkk-şübhə, hörmətsizlik,

qəyyumluq məfhumunu səhv başa düşmə hakimdir. Belə bir yanaşma tərzini, bir tərəfdən, islamın qadına hansı hüquqları verməsindən bixəbər qalan təfəkkür, digər tərəfdən, zaman keçdikcə dini məzmun kəsb etdirilmiş müəyyən adət-ənənələr doğurmuşdur.

Ümumiyyətlə müsəlmanlar, xüsusən dəvətçilər qadına inanmalı, onunla insafla davranmalı, həyatda, dəvət işində yerini almağına imkan yaratmalıdırlar. Bu işdə çoxlu fayda vardır; başlıcası – ədaləti təmin etməkdir. Ədalət islamın mühüm prinsiplərindən biridir. Dəvət işində, xüsusən qadınların kişiləri üstələdiyi sahələrdə qadın iştirakçılığını təmin etmək bu və ya digər yerlərdə məruz qaldığı haqsızlıqları bəhanə edərək qadınlara azadlıq tələb edən saxta və ideoloji çağırışların qarşısını ala bilər. Məhz islam qadına ədalətli və harmonik azadlıq bəxş etmiş, hüquqlarını, ləyaqətini, qadınlıq xüsusiyyətini qorumuş, onu cəmiyyətin ikinci yarısına, kişilərin "tən yarısı"na, nəsillərin yaradıcısına çevirmişdir.

## İslamda azadlıq

Dəvətçilər yerli qanunlarla məhdudlaşdırılan azadlıq anlayışını mənimsəməlidirlər. Mütləq azadlıq iddiası böyük axmaqlıqdır. Dinimizdə azadlıq yüksək qiymətləndirilir, məcburiyyət qadağan olunur. Dahi xəlifə Ömər ibn əl-Xəttabın sözü ənənəmizə qızıl hərflərlə yazılmışdır: "Anaları azad doğduqları halda insanları nə vaxtdan köləyə çevirmişsiniz?!"

Dəvət işində azadlığın hökm sürməsi onun xeyrinədir. Azad dəvətçilər insanlara əvvəlcə həqiqət, daha sonra könüllərdə özünə yer etmiş dini irs əsasında müraciət edərlər. Azad olmayan dəvətçilərin təbliğatı isə puçluqdan ibarət olub, vicdan və dini irsdən uzaqdır.

## İslamda insan haqları

Uca Allah buyurur:

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır" (əl-Hucurat, 13).

Əminliklə söyləyirik ki, islam insan haqlarına dair ilk ümumdünya bəyannaməsidir. O, insan oğlu üçün bütün hüquqları (etiqad, ləyaqət, təhsil, evlənmə, əmin-amanlıq, mülkiyyət...) təmin etmişdir. Hüquqların təminində islamın məqsədi insan oğlunun dəyərini yüksək tutmaqdır. İnsan ən hörmətli varlıq, Allahın yer üzündəki "xəlifə"sidir. Bütün yer üzü onun ixtiyarına verilmişdir.

## İslamda bəşəri qardaşlıq

Biz inanırıq ki, bəşəriyyət bəşəri qardaşlığın birləşdirdiyi, yaradıcısı Allah, atası Adəm, anası Həvva olan, torpaqdan yaradılıb torpağa qayıdacaq vahid ailədir. Bu səbəbdən hər kəsi (müsəlmanları və qeyri-müsəlmanları) ümumi mənafeyin birləşdirdiyi məsələlərdə əməkdaşlığa çağırırıq. Buraya sülhü, azadlığı, ədaləti təmin etmək, cinayətlərlə mübarizə aparmaq, təhsil, uşaqlara qayğı, yaşlılara xidmət, yaxşı qonşuluq, ətraf mühiti mühafizə, müqavilələrə sadiqlik və s. daxildir.

Dediklərimizə ən böyük sübut Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Vida xütbəsində etdiyi çıxışdır: "Ey insanlar! Həqiqətən, rəbbiniz birdir, atanız birdir! Hamınız Adəmdənsiniz, Adəm isə torpaqdandır! Allahın nəzərində ən hörmətliniz ən təqvalı olanınızdır. Bir ərəbin qeyri-ərəbdən üstünlüyü ancaq təqva ilədir. Çatdırdımmı? Allahım, şahid ol!"[7]

[7] İmam Müslim rəvayət etmişdir.

## Bir-birini tamamlayan iki mənsubiyyət

Dəvətçilər vətəni, təhlükəsizliyini, uğurlarını, təbiətini, gələcək nəsillərini qorumaq üçün əllərindən gələni etməlidirlər. Çünki vətənə və xalqa anadangəlmə mənsubluqla dinə və prinsiplərə ixtiyari mənsubluq arasında bir-birini tamamlayan harmonik əlaqə vardır. Bu iki mənsubluq bir-birinə qətiyyən zidd deyildir.

# Üçüncü mövzu

# Dəvət subyektləri (fərdlər və qurumlar) arasındakı münasibət

## Dəvət işində inteqrasiya

İslam təşkilatları arasında inteqrasiyanın olmağı çox mühümdür. İnteqrasiya olmazsa, əməkdaşlıq, əməkdaşlıq olmazsa, ehtiram və birgəyaşayış əsas götürülməlidir. Dördüncü variant – məhv olmaqdır.

## İxtisasa hörmət

Şəriət məsələlərini şəriəti yaxşı bilənlərdən soruşduğumuz kimi, dünya məsələlərinə cavab axtararkən mütəxəssislərə müraciət etməliyik. Mümkündür ki, filankəs yaxşı dəvətçi olsun, amma fitva verməyi bacarmasın; yaxud eləsi var ki, fitva verəcək qədər böyük alimdir, lakin idarəetmə sahəsində təcrübəsi və bacarığı yoxdur. Şəriəti yaxşı bilib dünya işlərindən baş çıxarmayan insanlar da az deyildir.

## Dəvətçilər və üstün mövqelər

Daha səmərəli icraçılığa sahib olmaq üçün dəvətçi vaxt, yer və vəzifə baxımından üstün mövqe tutmağı bacarmalıdır. O bu işdə təcrübəli şəxslərlə məsləhətləşməlidir. Çünki mövqe seçərkən onun nəfsinin istəklərinə uyğun davranması mümkündür.

Bir hədisdə deyilir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bəzi səhabələrini səciyyəvi cəhətlərinə görə təsvir etmişdir. Məsələn, deyirdi: "Quranı bu dörd şəxsdən öyrənin: Abdullah ibn Məsuddan, Müaz ibn Cəbəldən, Übeyy ibn Kə`b və Əbu Hüzeyfənin qulamı Salimdən"[8].

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xalid ibn Vəlid haqqında demişdi: "Xalid ibn Vəlid Allahın nə yaxşı quludur! O, Allahın qılınclarından biridir"[9].

Başqa hədisdə oxuyuruq: "Ümmətimin ümmətimə ən rəhmdil olanı Əbubəkr, Allahın dinini (icrada) ən sərt olanı Ömər, ən həyalısı Osman, halal və haramın ən dərin bilicisi Müaz ibn Cəbəl, vərəsəliyi ən yaxşı bilən Zeyd ibn Sabit, (Allahın kitabını) ən yaxşı oxuyanı Übeyy ibn Kə`bdir. Hər ümmətin etibar yiyəsi olan kimsəsi vardır. Bu ümmətin etibar yiyəsi Əbu Übeydə ibn Cərrahdır"[10].

Hədisdən məlum olur ki, səhabələr seçkin, nəcib şəxslər idilər. Amma onların hər birini digərindən fərqləndirən səciyyəvi cəhətləri olmuşdur. Peyğəmbər də məhz həmin cəhətə diqqəti çəkərək onların hər birini qiymətləndirmişdir.

## Ortaq "yol"

Dəvətçilərin məqsəd, vasitə və prioritetlərdə yeknəsəq nümunə (etalon) olmaları mümkün deyildir. Aralarında fikir ayrılıqlarının olmağı qaçılmazdır. Amma məsələyə yaxından vaqif olduqda görürük ki, etiqad, ibadət, əxlaq, sosial münasibət məsələlərində ortaq məxrəcə gəldiyimiz çoxlu cəhətlər (nüanslar) vardır. Təəssüf ki, ədavət bütün bunların üstündən xətt çəkir, mübahisəli "ərazi" yüzə vurulub böyük görünür, razılaşdırılmış "ərazi" isə yüzə bölünür, getdikcə kiçilir. Bu səbəbdən

---

[8] İmam Müslim rəvayət etmişdir.

[9] İmam Tirmizi rəvayət etmişdir.

[10] İmam Tirmizi rəvayət etmişdir.

əminliklə demək mümkündür ki, dəvətçilər üçün ortaq "yol", müştərək platforma mövcuddur. Odur ki hər kəs bu yolu, bu platformanı tanımalı, onun əsasında fəaliyyət göstərməli, onu səbirlə, sakit formada, davamlı şəkildə genişləndirməlidir.

## Fikir birliyi

Dəvətçilər arasında parçalanmanın səbəblərindən biri ortaq məxrəcə gələ bilməməkləridir. Fikir birliyinin olmamağı öz növbəsində ortaq məqsədlərin, vasitə və prioritetlərin tapılmamağı ilə nəticələnmiş, hətta nifrət və ədavətə səbəb olmuşdur.

Bunun üçün ümumiyyətlə dəvətçilər, xüsusən gənclər arasında həmrəyliyin möhkəmləndirilməsi işinə xüsusi etina ilə yanaşmaq lazımdır.

Bunu isə Quran və Sünnəyə, mö`tədilliyə, əməkdaşlığa, tolerantlığa, qardaşlığa, ədalətə əsaslanan din mədəniyyətini bərqərar etməklə həyata keçirmək olar. Bununla yanaşı, prioritetlərin düzgün müəyyənləşdirilməsi, dialoq bacarığı, mübahisə ədəb-ərkanı məsələlərinə diqqət yetirmək, islamın universallığı, bütün dövr və coğrafiyalar üçün yararlılığını vurğulamaq lazımdır.

Bu məqsədə xidmət edən ədəbiyyatın xüsusi etina ilə seçilməsi, dəvətçilər və gənclərin diqqətinə çatdırılması problemin həllində bizə kömək edə bilər. Belə ədəbiyyat və əsərlər təhsil nazirliyinin məktəb proqramlarında olduğu kimi ildən-ilə nəzərdən keçirilib təkmilləşdirilməlidir.

## Müsəlmanların bir qrupu

Hansı isə dəvətçi camaat[11], qrup, yaxud hərəkatın müsəlmanları təmsil edən yeganə fiqur olduğuna deyil, əksinə on-

[11] Müsəlman dünyasında islam dininə özünəməxsus münasibəti ilə seçilən dini qrup nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

lardan bir qrupu əmələ gətirdiyinə inanırıq. Hər hansı bir qrupun, camaat və hərəkatın dəyəri doğru düşüncəyə sahib olmağı, əməli nailiyyətləri ilə ölçülür.

## Rəsmi və könüllü fəaliyyət

Rəsmi islam fəaliyyəti hakimiyyətə tabe dövlət qurumlarından hər hansı birinin həyata keçirdiyi fəaliyyətdir. Könüllü (xalq) islam fəaliyyətində isə icraçı kimi qeyri-hökumət təşkilatları, yaxud qurumları çıxış edir.

Çox vaxt bu iki fəaliyyət növünün təmsilçiləri arasında bədgümanlıq, ittiham və ədavət özünü göstərir. Əvvəlcə, iki mühüm məsələni qeyd edək:

Birincisi, onlardan hər hansı biri mütləq doğrunu, yaxud səhvi təmsil etmir. Hər iki tərəfin öz yanlışları və düzgün atdığı addımları vardır.

İkincisi, bəzən yerdəyişmə baş verir: rəsmi fəaliyyət könüllü (xalq) fəaliyyətə və əksinə çevrilir.

Hər iki istiqamətin təmsilçiləri inam, qarşılıqlı başadüşmə, əməkdaşlıq və tolerantlıq körpüsü qurmaq üçün əllərindən gələni etməlidirlər. Çünki dəvət hər kəsin məsuliyyətidir. Bu baş verərsə, səmərəsi ürəkaçan olacaqdır. Əks halda, tərəflərin ömrü silsiləvi yorğunluq və bədbəxtliklə keçəcəkdir.

Problem asan deyildir, amma eyni zamanda qeyri-mümkün də görünmür. Mühüm olduğu üçün bizdən ağır zəhmət və fədakarlıq tələb edir.

## Təşkilat işi

Biz islam əxlaqına ehtiram göstərən, onun nizamnaməsinə əməl edən mütəşəkkil, kollektiv təşkilat işini yüksək qiymətləndiririk. Əminik ki, təşkilat işi nəticə etibarı ilə ümmət üçün daha faydalıdır, fərdi işdən daha davamlıdır. Əlbəttə ki, həm

fərdi, həm də təşkilat işində xeyir vardır. Amma əminliklə deyirik ki, təşkilat işi yoxlama, təshih, qiymətləndirmə, yaxşılaşdırılma və yenilənmə baxımından daha münasibdir. Həmçinin fərdlər gəldi-gedərdir, davamlı təşkilat işi isə qalıcıdır.

## Komanda ruhu

İşçilər arasında komanda ruhunu, ortaq fəaliyyət prinsipini möhkəmləndirməyə çalışmalıyıq. Bu baxımdan əvvəlki dəvətçiləri qiymətləndirmək, nəsillər arasında əlaqəyə təşviq etmək, yaşlıların müdrikliyindən, cavanların coşqunluğundan faydalanmaq, ümumi maraqları fərdi maraqlardan üstün tutmaq, baş verməsindən qabaq problemlər və ixtilafların qarşısını almağın qanuni və mədəni yollarını razılaşdırmaq, işçilər arasında maliyyə və inzibati ədalət abı-havasına rəvac vermək lazımdır.

## Şura (məşvərət)

Uca Allah buyurur:

"...işlərini öz aralarında məsləhət-məşvərətlə görərlər" (əş-Şura, 38);

"...işdə onlarla məsləhətləş..." (Ali-İmran, 159).

Bu səbəbdən biz məşvərəti, fərqli fikirlərə hörmət göstərilməsini alqışlayır, düşünmə və yaradıcılığa təşviq edir, hər bir şəxsə fikirləşmək və fikrini ifadə etmək haqqı verir, hər kəsi sonda qəbul edilmiş qərara – əgər şəriətin açıq-aydın prinsiplərinə əks düşmürsə – əməl etməyə çağırırıq.

Qərarın düzgün, yaxud düzgünə yaxın olmağı üçün onun mötəbər qurum tərəfindən qəbul edilməsi lazımdır. Çünki belə qurum məlumatların tam korpusuna sahib olur.

## Dinc tədavül (ötürülmə)

Dəvətçilər dəvət müəssisəsində məsuliyyətin tədavülünü təmin edən ağlabatan və konkret mexanizm müəyyənləşdirməlidirlər. Söhbət xoşhallıqla, dinc formada, rəvan qaydada baş tutan tədavüldən (ötürülmə) gedir. Bu mexanizm xudbinliyin, inhisarın, qəyyumluğun qarşısını alır, bölünmələri, hərc-mərcliyi, bacarıqsızlığı, ətaləti aradan qaldırır, yenilənməyə, yaradıcılığa imkan açır, nəsillərarası kontaktın dairəsini genişləndirir, mümkün qədər çox rəhbər kadrların yetişdirilməsinə kömək edir, komanda ruhunu möhkəmləndirir, təşkilat işinə hörməti təsdiqləyir.

## Lazımi səciyyəvilik

Keçmiş və indiki dəvətçi alimləri, islahatçıları sevməli, özümüzə nümunə götürməli, onlara dua etməliyik. Amma onları müqəddəsləşdirmək, təcrübələrini hərfi-hərfinə təkrarlamaq olmaz. Çünki hərfi-hərfinə təkrar səciyyəviliyimizi nəzərə almır, zaman, məkan və şərait fərqlərini sərf-nəzər edir. Əgər zaman və məkan fərqlərini nəzərə alsaq, keçmiş alimlər necə ictihad etmişlərsə, biz də o cür ictihad edəcək, zaman və məkan fərqlərini nəzərdən qaçırmayacağıq.

## Qiymətləndirək, müqəddəsləşdirməyək

Bir müsəlmanın öz dəvətçi liderini, müəllimini, məscidindəki imamı sevməsi təbii olmaqla yanaşı, həm də faydalı zərurəti ifadə edir. Amma bu sevgi əndazəsini aşmamalıdır. Əvvəlki dinlərin təmsilçiləri peyğəmbərlərini, əməlisaleh şəxsləri uca tutmaqda ifrata varmış, Allahı deyil, onları özlərini dost bildikləri üçün yollarını azmışdılar. Bu da öz növbəsində şirkə aparıb çıxarmışdı. Adi və dəvətçi müsəlmanlar arasında geniş

yayılmış "mərəz"lərdən biri onların öz avtoritetlərinə son dərəcə bağlı olub, onları haqq və puçluğun, doğru və yanlışlığın meyarı halına gətirmələridir. Onların nəzərində bu şəxslər, az qalsın ki, məsum hesab edilirlər. Onlar bu məsələdə aşağıdakı qaydanı yaddan çıxarmışlar: "Haqqı insanlara görə deyil, insanları haqqa görə tanımalıyıq".

Belə təəssübkeşlik keçmişdə də, indi də müsəlmanların parçalanmasına, dəvətçilər arasında kinin, ədavətin yayılmasına səbəb olmuşdur.

Həll yolu budur ki, insanlar öz avtoritetlərini sevməkdə ifrata varmasınlar, onları yanılan və haqlı çıxan bəşər hesab etsinlər. Sevgi, təqdir və yaxınlıq bu şəxslərdə haqq və nailiyyətin "həcm"inə uyğun olmalıdır. Müsəlman daima haqqı axtarmalıdır; avtoritet gəldi-gedər "vasitə"dir, ideya və məqsəd isə qalıcıdır.

## Başqalarına xoş münasibət

Prinsiplərimiz şəxsi mülkiyyətimiz deyildir; əksinə, biz prinsiplərin mülkiyyətiyik. Odur ki həmin prinsiplər üçün çalışanlar bizdə narahatlıq yaratmamalıdır. Üslubları, ictihadları fərqli olsa da, onlara görə sevinməliyik. Çünki onları və bizi birləşdirən amil dəvətə xidmətdir. Onları sevməli, çəkdikləri zəhməti qiymətləndirməliyik, onlara tövsiyə verməli, onlarla mümkün qədər əməkdaşlıq etməliyik. Həmçinin hansı isə fərdin, camaatın çəkdiyi zəhmətdən – az da olsa, səhvlər, yaxud çatışmazlıqdan xali olmasa belə – faydalanmalıyıq. Şeyx Məhəmməd Rəşid Rzanın məşhur qaydasını – "həmrəy olduğumuz məsələlərdə əməkdaşlıq edir, fikir ayrılığına düşdüyümüz məsələlərdə isə bir-birimizi üzrlü sayırıq" qaydasını əsas götürməli, xeyirli işlərlə məşğul olan və bizimlə fikir ayrılığına düşənləri üzrlü hesab etməliyik.

## Haqq möhtəkiri deyilik

Aşkar və qəti surətdə car çəkirik ki, haqq və doğru təkcə bizim inhisarımızda deyildir. Həmçinin başqalarına xəbərdarlıq edirik ki, haqqın təkcə onların inhisarında olmağı kimi səhv gümana düşməsinlər. Biz öz məqsədlərimiz və vasitələrimizə əminik, amma onların mükəmməl olduğunu iddia etmirik. Bizə səhvimizi və qüsurlarımızı göstərən hər kəsi alqışlayırıq. Habelə biz başqalarının məqsəd və vasitələrdəki seçim və variantlarına ehtiramla yanaşırıq.

Hər birimizdən tələb olunur ki, niyyətimizi ancaq Allah üçün edək, doğrunu axtaraq, cəsarət və yenilənmə ilə silahlanaq, mümkün səhvlərimizi etiraf edək, başqaları haqlı çıxdıqda haqqa, doğruya görə sevinək.

Bunun üçün təcrübə mübadiləsinə çağırırıq. Bu, dəvətçilər və təşkilatların informasiya bazasının zənginləşməsi, məhsuldarlığı baxımından çox mühümdür. Bu ona görədir ki, nəsihət və yolgöstərənliyə hər kəsin ehtiyacı vardır; doğru (haqq) kiminsə inhisarında olmadığı kimi, bu və ya digər tərəf də bütövlükdə səhvin təmsilçisi deyildir.

# Dördüncü mövzu

# Dəvət işində inkişaf və ixtisaslaşma

## Məqsədlərin müəyyənləşdirilməsi

Hər bir dəvət fəaliyyətinin öz məqsədləri vardır. Bu məqsədlərin müəyyənləşdirilməsi son dərəcə əhəmiyyətli məsələdir. Bu səbəbdən dəvət fəaliyyəti ilə məşğul olanlar nə istədiklərini dəqiq və aydın şəkildə müəyyən etməli, istəklərini hər cümlə və sözün hesaba alındığı qaydada yazmalıdırlar. Dəqiqlik, aydınlıq, mötəbərlik, zərurilik və həyata keçirilməyə qabillik nəzərə alınmalıdır. Xoş, amma çətin amallarla reallığı fərqləndirə bilməyənlərin müvəffəqiyyətsizliyə düçar olmaq ehtimalı yüksəkdir. Fərdlərin səhvləri fəlakətdir, amma qrupun (camaat) yanılması daha böyük fəlakətdir.

Dəvət işinə ünvanlanmış əsas tənqidlərdən biri budur ki, dəvətçilər "istəmədikləri şeyləri" yaxşı bildikləri halda, dəqiq şəkildə nəyi istədiklərini bilmirlər. Dəvət fəaliyyəti qarşısına yanlış, bəzən isə doğru, amma qeyri-real məqsədlər qoyduqda özünə zərər toxundurur, çünki ilğım dalınca qaçır; belə olduqda xoş niyyətin dəvətçiyə köməyi toxunmur. Çünki xoş niyyət məqsədin yarısı olduğu halda, digər yarısı doğru addımlarla şərtləşir.

Dəvətçilər dəqiq şəkildə bilməlidirlər ki, "kimdirlər", "nə istəyirlər". Onlar məhz bundan sonra plan və proqramlarını müəyyənləşdirməlidirlər. Bu halda həm özlərinə, həm də çağırışlarına hay verənlərə qarşı dürüst olacaqlar. Bunu edə bilsələr, yaxşı olacaqdır, əks halda, nəticə fəlakətdir.

## Gələcəyə doğru

Zaman Allahın əmri ilə yerində dayanmır, hey hərəkət edir. Hal-hazır keçmişin oğlu, gələcəyin atasıdır. Bu cəhətdən dəvət fəaliyyəti keçmiş təcrübədən dərs çıxarmalı, günümüzə düzgün münasibət bəsləməli, gələcəyə hazırlaşmalıdır. O, səbəbləri nəzərə almalı, nəticəni isə səbəblərin sahibi Allaha iman və təvəkküllə həvalə etməlidir.

Bunun üçün gələcəyi proqnozlaşdırmaq, gələcəyə dair planlar qurmaq dəvət işi üçün vacibdir, şüurlu davranışın göstəricisidir, uğurun səbəbidir. Bunu edərsə, doğru addım atmışdır, yox, etməzsə, donuqluq və özünütəcrid qaçılmaz olacaqdır. Donuqluq baş verərsə, dəvət işi vəzifəsini yerinə yetirdikdən sonra zamanın unutdurduğu "xəbər"ə çevriləcəkdir.

İslam gələcək naminə çalışan dindir. Biz buna islamla əlaqəli bir çox məsələdə rast gəlirik. Məsələn, islam bizi daima özümüzə nəzarət edib hesab gününə hazırlaşmağa çağırır. Çünki əsil gələcəyimiz oradadır. Həmçinin Yusif peyğəmbərin əhvalatı hər birimizə tanışdır. O, müdrikliklə gələcəyə dair plan qurmuş, Misiri qıtlıq illərində aclıqdan xilas etmişdir. Həzrət Məhəmməd də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hər bir işdə gələcəyə dair müfəssəl planlar qururdu. Biz bu hala Həbəşistana, Mədinəyə hicrət zamanı, yəhudilərlə müqavilələr bağlayarkən, səriyyələr[12] göndərərkən, məktublar yazarkən, müharibələr apararkən, yerli və regional hadisələri diqqətlə öyrənərkən, Mədinə müsəlmanlarını siyahıya aldırarkən... rast gəlirik.

## Şüurlu yenilənmə

Dəyişməz prinsiplərə ehtiram göstərməklə yanaşı, davamlı yenilənmənin əhəmiyyətini yaxşı başa düşürük. Belə olduqda

[12] **Səriyyə**: Peyğəmbərin zamanında 9-400 nəfərlik çevik (mobil) dəstələr – ***tərcüməçinin qeydi.***

yararlı köhnə ilə faydalı yeni vəhdətdə götürülür, dövrə ayaqlaşmaq mümkün olur. Bu da öz növbəsində bizə bizi ətalət, acizlik və özünütəcriddən qoruyan canlılıq bəxş edir.

Dəvət işi davamlı şəkildə özünü, prinsiplərini, proqramlarını, şüarlarını, rəhbər şəxsləri və qurumlarını doğru və səhv, passivlik və fəallıq, mümkün və qeyri-mümkün, yerli və beynəlxalq dəyişikliklər baxımından nəzərdən keçirməli, dəyişdirməli, düzəltməli, yerdəyişmələr, əlavə və ixtisarlar etməlidir. O, səhvlərini car çəkməlidir ki, gələcək nəsillər eyni yanlışı təkrarlamasınlar. O, fəaliyyətinin yeni perspektivlərini müəyyənləşdirməlidir. Bunu edə bilərsə, davam etməyə qadir canlı orqanizmə sahib olduğunu isbatlayacaqdır. Bu, xoş müjdələrə səbəb olacaqdır. Yox, etməzsə, donuqluq və ərimə labüddür. Donuqluq və ərimə isə ağır nəticələrin olacağına dair xəbərdarlıqdır.

## Özəetimad

İmkan daxilində özəetimada, şəxsi imkanlara əsaslanmağa çağırış edirik. Çünki ianələr qeyri-stabil, zəmanətsiz mənbədir. Bəlkə də, özəetimadın ən mühüm vasitələrindən biri münasib vəqf qurumlarının yaradılmasıdır.

## Nümunəvilik

Hər bir dəvət qurumu prinsipləri, metodları, planları, işçilərinin əxlaqı ilə müvəffəqiyyətli dəvət işi üçün etalona, nümunəyə çevrilməlidir. Elə nümunəyə ki, görənlər heyran qalıb onu təkrarlamağa tələsəcəklər.

## Dəvət işi dünyada ən şərəfli işdir, çünki peyğəmbərlər onunla məşğul olmuşlar

Təcrübə göstərir ki, dəvətçilik xüsusiyyəti ilə seçilən kimsə çox vaxt insanların ehtiram və sevgisini qazanır. Mühümdür ki, Allah üçün çalışan kimsə vəzifə əldə etməyi əsas qayəyə çevirməsin, Allah naminə çalışsın, niyyəti də bu olsun. İşdir, heç planlaşdırmadığı halda vəzifədə irəli çəkilərsə, buna görə Allaha şükür etməli, etimadı doğrultmağa səy göstərməli, vəzifədə ikən insanların və Allahın sevgisini əsas götürməli, təvazökar olmalı, insanlara xidmətə can atmalı, haqqa girməkdən özünü saxlamalıdır.

O, vəzifəyə cah-calal deyil, məsuliyyət gözü ilə baxmalı, onu bərbəzək deyil, ağır yük, qənimət deyil, zərər, şərəf deyil, tapşırıq (yük) hesab etməlidir.

Qeyd edək ki, iffətli və təvazökar olmaq vəzifədən imtina mənasına gəlmir. Əks halda bu, insan oğlunun yer üzündə Allahın xəlifəsi təyin edilməsi və ona yer üzünü abadlaşdırmaq vəzifəsinin tapşırılması ilə ziddiyyət təşkil edərdi. Yusif peyğəmbərin əhvalatı buna misaldır. O, vəzifəni qəbul etmiş, bununla da cəmiyyətə fayda vermişdi. O bu vaxt ədalət və layiqliyə əsaslanan sosial sistemdə payı olan aksioloji-əxlaqi baxış bucağından çıxış edirdi.

Bacarıqlı insanların cəmiyyətə, ümmət və bəşəriyyətə xidmət üçün öz qabiliyyətlərini üzə çıxarması mümkündür. Axı niyyət əməlin qəbul edilməsində başlıca şərt kimi çıxış edir. Peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Doğrudan da, əməllər niyyətə görədir. Hər kəsə etdiyi niyyət qalar. Kim Allah və peyğəmbəri naminə hicrət edibsə, hicrəti Allah və peyğəmbəri üçündür. Kim də ki nəsibinə düşən dünya (malı) və evlənəcək qadın üçün hicrət edərsə, hicrəti niyyətinə uyğundur"[13].

[13] İmam Buxari rəvayət etmişdir.

## Layiq olanların irəliyə çəkilməsi

İslam işində rəhbər kadrlar yoxlama və sınaqlardan sonra bu ali vəzifəyə layiq kimsələr arasından seçilməlidir.

Təəssüf ki, islam işinin bir çox qruplarında sözügedən qaydaya bu və ya digər formada əməl edilmir. Bəzən görürsən ki, birisini natiqliyinə görə qabağa çəkirlər. Eləsi də var ki, cəmiyyətdə tanındığı üçün rəhbər vəzifəyə gətirilir. Regionuna görə rəhbər seçilən kimsələr də tapılır.

Layiqliyin Şəriət tərəfindən müəyyən edilmiş meyarları vardır. Buraya birincilik, təqva, bilik və bacarıq daxildir.

## İltizam zəruridir

İstənilən dəvətçi qrup özünün prinsipləri, metodları, layihələri, davranış tərzi, üzvləri və rəhbər kadrlarının əxlaqı ilə doğrunu, səmimiyyəti, dürüstlüyü, ciddiliyi ifadə edən nümunə olmağı bacarmalıdır. Belə nümunəni insanlar görüb xoşlanacaq və təkrarlayacaqlar. Dəvətçi qrup bundan məhrum olarsa, zərəri xeyrindən çox olar; ləğv edilməsi fəaliyyət göstərməsindən daha yaxşıdır.

Dinin gətirdiyi əxlaqa və qaydalara əməl etməyən dəvət işi, sözün həqiqi mənasında, yükdür. O, partlayaraq dəhşətli fəlakətə səbəb olacaq saat mexanizmli bombanı xatırladır.

Dəvətçilər yadda saxlamalıdırlar ki, yaxşı nümunə dəvət işinin ən mühüm və ən səmərəli vasitəsidir. Müsəlman dəvətçilər müxtəlif vasitələrdən istifadə etmiş, islamı yaymada uğur qazanmışlar. Bu vasitələrin başında yaxşı nümunə olmaq gəlir. Elə isə dəvətçilər insanların nəzərində islamın ən gözəl nümunəsi halına gəlməlidirlər.

## Narsistlər və ayrılıq anı

Bir yunan əfsanəsində deyilir ki, Narsiss (Narkis, Nərgiz) adlı yaraşıqlı gənc bir dəfə suda öz əksini görüb özünə vurulur. O, sudakı əksinə ölənədək tamaşa edir. Öldükdən sonra suda "nərgiz" adlanan gül bitir. Narsissizm termini buradan yaranmışdır, insanın özünə bəzən onun həlak edəcək dərəcədə məftun olmasını bildirir.

İslam işində də narsist şəxslərə təsadüf olunur. Müsbət keyfiyyətlərinə, bacarıqlarına baxmayaraq, dəvət işini belə şəxslərdən təmizləmək lazımdır.

Onlar bütövlükdə şəri təmsil etmirlər, tərifəlayiq xüsusiyyətləri də vardır. Amma onlar islam işinə bu işin tələbləri onların maraqları ilə toqquşmadığı təqdirdə xidmət edirlər. Elə ki dəvət işinin tələbləri onların maraqları ilə toqquşdu, ondan ayrılır, bəzən də onun ən qəddar düşməninə çevrililər. Parçalanma (ayrılıq) labüddür, çünki onlar nəfsi istəklərinin köləsidirlər. Deməli, narsistlər saat mexanizmli bomba kimidirlər. Onların islam fəaliyyəti sahəsinə daxil olmaları öldürücü xətadır. Bundan da öldürücü olanı onlara bu sahəyə girməyə icazə verənlərin səhvidir.

## Müsbət abı-hava

Neqativlikdən, bədbinlik, nifrət oyatma və çətinləşdirmədən imtinaya çağırdığımız kimi, müsbət hallara, nikbinlik, müjdələmə və asanlaşdırmağa köklənməyə də çağırış edirik.

## Təsir və maraq dairələri

Hər bir müsəlmanın həyatında iki dairə mövcuddur:

Birincisi təsir dairəsidir. Bu dairə dəvətçinin fəallaşıb, özünə və başqalarına faydalı olmağı bacardığı hər şeyi əhatə edir.

Səhhətinin qeydinə qalması, ruzi qazanması, qohumları və yoldaşlarına xidmət göstərməsi, ətrafındakıları doğru yola yönəltməsi, bacarıqlarını inkişaf etdirməsi, ailəsinə baxması, işini tənzimləyən qaydaları, ölkəsində qəbul edilmiş qanunları bilməsi və sair buraya daxildir.

İkinci dairə maraq dairəsidir. Bununla az-çox təsir göstərə bilmədiyi yerli və beynəlxalq məsələləri (neftin qiymətinin qalxması, iqlim dəyişikliyi, ekoloji çirklənmə, aclıq) izləmək nəzərdə tutulur.

Dərrakəli müsəlman əsas diqqətini birinci dairəyə verməlidir, çünki ona təsir etməyi bacarır. Həmçinin bu sahə onun dini öhdəliyinin predmetini əmələ gətirir.

İkinci dairəyə gəlincə, ona məhdud səviyyədə münasibət bildirməlidir ki, yaşadığı dövrdə baş verənlərdən agah olsun.

Əgər bu dairəyə həddindən artıq aludə olsa, "qadağan edilmiş sahə"yə ayaq basar, vaxtını və enerjisini onu kədərləndirən və düzəltməyə gücünün çatmadığı şeyə sərf edər. Axırda, nəsibinə davamlı narahatlıq, uğursuzluq və kədər düşər; bəlkə də, özünə qapanar, bacardığı işdən soyuyar, bəhanələrlə yaşayar, öz əli ilə başına açdığı işlərə görə taleyi qınayar. Müdrik kəlamda deyilir: "Uğur qazanan insanlar həll və alternativ, uğursuz insanlar isə bəhanə və üzr tapmaqda mahirdirlər".

## Məsuliyyət

Böyük və Uca Allah dinini qorumağı öz öhdəsinə götürsə də, bu vəzifəni müsəlmanlara tapşırmışdır. Bu din – açıq-aydın haqqı təmsil etsə də – taleyə görə mövcuddur, amma bu mövcudluğu insanların əməyi təmin edir. Biz yaxşı bilirik ki, peyğəmbərlər, həvariləri, səhabələri, onların yolu ilə gedənlər bu dinə kömək üçün necə fədakarlıq göstəriblər. Biz də onları özümüzə nümunə götürməli, yolları ilə getməliyik.

## “Və onlar məsuldurlar”

Bir çox dəvətçi səhvən elə düşünür ki, çəkdikləri zəhmət səmərə verməzsə, buna görə məsuliyyət daşımırlar. Problemə aydınlıq gətirmək üçün ayrıca qayda təsis etmək lazımdır. Bu məsələni ümumiyyətlə kənara atmağın təhlükəsi böyükdür. Ən yüngül təhlükə özünü hesaba çəkməməyi vərdiş halına gətirmək, pislə yaxşıya eyni gözlə baxmaqdır.

Əgər dəvətçilər ixlaslı olub həqiqəti axtarsalar və bu istiqamətdə əllərindən gələni etsələr, uğur qazandıqda şükür edər, müvəffəqiyyətsizliyə uğradıqda isə üzrlü hesab olunarlar. Bu şərtlərdən[14] birinə əməl edilməzsə, dəvətçilər müvəffəqiyyətsizliyə düçar olacaqlar. Və onlar baş verənlərə görə məsuldurlar.

## Özünü hesaba çəkməyin əhəmiyyəti

Özünü hesaba çəkmək islama xas prinsip olub, ali mədəni üslubdur. Bu cəhətdən ona əhəmiyyət verib, davamlı şəkildə əməl etməliyik. Bu, səmimiyyət, açılma, özünütənqid, davamlı təkrar və düzəliş vasitəsilə mümkündür. Nəticədə müsbət cəhətlərimizi tanıyıb qoruyur və artırır, mənfi cəhətlərimizdən isə ehtiyat edib uzaq dururuq. Axı bəşəri fəaliyyətə ya yanılmaq, ya da haqlı çıxmaq xasdır.

---

[14] İxlaslı olmaq, həqiqəti axtarmaq və zəhmət çəkmək nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

# Beşinci mövzu

# Dəvət fiqhi

## Kollektiv ictihad fiqhi

Dərindən inanır və təkid edirik ki, islam bütün dövr və coğrafiyalar üçün yararlı din olub, yeni-yeni problemlərin həllinə qadirdir. Biz islam alimləri və hüquqşünaslarını həll yolları təqdim etməyə çağırır, kollektiv ictihad qurumlarını alqışlayırıq.

Bu qurumlara Misirdəki İslam Tədqiqatları Akademiyası, Ümumdünya İslam Liqası, Xartum İslam Fiqhi Akademiyası, Fitva və Tədqiqatlar Avropa Şurası, Şimali Amerika İslam Fiqhi Şurası və sair daxildir. Biz belə qurumların yaradılmasını son dərəcə mühüm hesab edirik. Ümid edirik ki, bu qurumlar arasında koordinasiya olacaqdır. Çünki koordinasiya səmərəni artırır. Həmçinin ona da ümid edirik ki, texniki şöbələr mütəxəssis və təcrübəli kadrlarla tamamlanacaq, mötəbərliyi və fəallığı artacaqdır.

## İxtilaf fiqhi

İslam dini vəhdəti əhəmiyyətli sayır, ona təşviq edir, parçalanmamaq barədə xəbərdarlıq edir. Bununla yanaşı, islam fikir ayrılıqlarına aparıb çıxaran bəşəri növbənövlüyü də inkar etmir. Fikir ayrılıqları ilahi qanunlardan biridir.

İxtilafın faydalı (səmərəli) və zərərli olmaqla iki forması vardır. Fikir və rəylərdəki müxtəliflik səmərəli hesab olunur, çünki bəşəri təcrübəni zənginləşdirir, insan təbiəti ilə səsləşir.

Allah insanları düşüncə tərzi, xarakter, rəng, həcm, görünüş baxımından fərqli yaratmışdır.

Könüllərin ixtilafı isə zərərlidir. Ayə və hədislərdə ixtilafın bu forması qadağan və haram edilmişdir. Pak Allah buyurur:

"Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!" (Ali-İmran, 103).

Səmərəli ixtilaf növbənövlük olub, bir neçə şam yandırmağı xatırladır. Şamların sayı artdıqca işıq da artır, biri digərini söndürmür. Zərərli ixtilaf isə təzaddır, ziddiyyətdir, çəkişmə və düşmənçiliyə səbəb olur; nəticədə tərəflər zəifləyir, uğursuzluğa məruz qalır.

Qeyd edilməlidir ki, islamda "bağlı zona" mövcuddur, ixtilaf oraya sirayət etməməlidir. Bu "zona" dinin ümməti, kimliyini, ruhunu, missiyasını, ideoloji birliyini qoruyub saxlayan dəyişməz prinsiplərindən ibarətdir. Buraya ibadətlər, əqidə, əxlaq və qəti hökmlər daxildir. Bu baxımdan ixtilaf və ixtilaf ədəb-ərkanı fiqhini öyrənmək, şəriətin icazə verdiyi məsələlərdə başqalarının fərqli düşünmək haqqını tanımaq lazımdır. Söhbət zaman və məkana görə növbənövlüyə, dəyişilməyə qabil vasitə və üslublarla əlaqəli işlərdə nöqteyi-nəzərlərin müxtəlifliyindən gedir.

## Məzhəb fiqhi

Ümumiyyətlə islam məzhəbləri, xüsusən Dörd Məzhəb alimlərin təsis etdiyi, əsrlərin cilaladığı qiymətli irs, zəngin sərvətdir, müsəlman ümmətinin fəxridir.

Müsəlman bu irsdən davamçısı olduğu məzhəbi seçməli, öz məzhəbinin dəlilləri ilə bacardığı qədər tanış olmalı, başqalarının seçiminə hörmət göstərməlidir. Onunla başqa məzhəb mənsublarının dialoqu ədəb-ərkan çərçivəsində, obyektivliklə, haqqı axtarmaq məqsədilə baş verməli, haqqı tapdıqda – bu, qarşı tərəfin fikirlərində olsa belə – sevinməlidir.

Bütün məzhəblərdə doğru və yanlış, üstünlüyün verildiyi və verilmədiyi məsələlər vardır. Bu, müqayisə (***müqarinə***), üstüntutma (***müfazilə***), seçim (***ixtiyar***) və yeniləmə (***təcdid***) bacarığı olan mötəbər alimlərin qərar verdiyi məsələdir.

Məzhəb təəssübkeşliyi olduqca zərərlidir, amma məzhəblərdən imtina, onlara savaş açmaq, müsəlman kütlələri məzhəbdən imtinaya, Quran və Sünnədən birbaşa öyrənməyə çağırmaq daha zərərlidir. Məzhəblərin ləğvinə çağırmaq praktik cəhətdən qeyri-mümkün işdir. Buna cəhd edənlərin özləri də seçdikləri, yaxud şeyxlərinin onlar üçün müəyyənləşdirdiyi fiqhi ictihad və hökmlərə əməl edir, bilərəkdən və ya bilməyərəkdən yeni məzhəbin əsasını qoyur, bununla da tənqid etdikləri "cinayət"i özləri işləmiş sayılırlar.

## Məqsədlər fiqhi

Dəvətçilər məqsədlər fiqhinin ***(fiqh əl-məqasid)*** nə olduğunu yaxşı bilməli, onu dərindən öyrənməlidirlər. Onlar dini mətnlərin formasından (***zahir***), hərfi məzmunundan yapışıb, onlarda qarşıya qoyulmuş məqsəddən, sirr və hikmətdən uzaq düşməməlidirlər. Bu, dini mətnlərin dəyərini bilməmək, bununla da şəriət hökmlərindən yayınmaq mənasına gəlmir; əksinə, bu, dini mətnlərin mahiyyətinə varmaq, həmrəy və mübahisəli hökmləri balansda götürmək, ayrı-ayrı (xüsusi) hökmləri ümumi hökmlər, Şəriətin başlıca məqsədləri, "Dərs (ibrət) formada deyil, məqsəd və məzmundadır" qaydası əsasında nəzərdən keçirmək mənasına gəlir.

Şübhə yox ki, bu bizdən məqsədşünas-mütəxəssislərə diqqətlə qulaq asmağı tələb edir. Belə olduqda məqsədlər fiqhinə şüurlu münasibət bəsləməyi öyrənəcəyik.

## Prioritetlər fiqhi

Prioritetlər fiqhinin əhəmiyyətini vurğulayır və ona çağırış edirik. İslamın təlimləri eyni dərəcəli deyildir. Məsələn, iman və tövhid təlimi yoldan əngəli uzaqlaşdırmaq göstərişindən qat-qat əhəmiyyətlidir. Həmçinin dəvət işi ilə əlaqəli təlimlər dərəcə baxımından fərqlidir. Biz bu məsələni yaxşı başa düşməli, hər problemi yerinə görə qiymətləndirməliyik. Bizdən o da tələb olunur ki, vaxtaşırı olaraq, dəyişiklikləri nəzərə alıb prioritetləri müəyyən edək. Çünki islamın prioritetlər "pilləkə"ni dəyişməzdir, amma islam işinin (***dəvət***) prioritetləri zamana, məkan və fərdlərə görə dəyişir. Prioritetlər məntiqi ilə əlaqədar olaraq, baş verəcəyi təqdirdə zərərləri balanslaşdırmağı bacarmalı, ən az olan zərəri seçməliyik; həmçinin faydaları balanslaşdırmağı, daha faydalı olanını seçməyi bacarmaq lazımdır.

## Nəticələr fiqhi

Dəvətçilər nəticələr fiqhini, yəni nəticələri, deməli, nə vaxt isə verdikləri bu və ya digər qərarın aparıb çıxacağı gedişi yaxşı bilməlidirlər. Bu məsələ ilahi qanunauyğunluqları, yerli, regional və beynəlxalq şəraiti yaxşı bilməyi tələb edir. Bu səbəbdən onlar hansı isə qərarı verməzdən qabaq onun səbəb ola biləcəyi nəticələri, özlərinə və başqalarına təsirini uzun-uzadı düşünməli, götür-qoy edərkən gümandan deyil, əminlikdən çıxış etməli, tələsməyib təmkinli olmalı, illüziyalara qapılmamalıdırlar.

## Reallıq fiqhi

Dəvətçilər reallıq fiqhini öyrənməli, real şəraitə, konyunkturaya bələd olmalı, istəklər və imkanlar arasındakı "məsafə"ni düzgün ölçməlidirlər. Bununla da, onların şüarları, məqsəd və proqramları tətbiqə qabil olacaqdır. Bu da öz növbəsində düşüncə və hissləri tərbiyə etməyi, insanları aydın və diqqətlə seçilmiş məsələlər ətrafında birləşdirməyi, zərurətləri gözləməyi, tədricilik qanununu nəzərə almağı labüd hala gətirir.

## Mötədillik fiqhi

İslam mötədillik dini olub iki xoşagəlməz haldan uzaqdır: ifrat və natamam münasibət (laqeydlik).

Allah müsəlmanları təriflәyərək onlar barəsində buyurur:

"(Ey müsəlmanlar!) Beləliklə də, sizi mötədil (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də (Məhəmməd əleyhisəllam da) sizə şahid olsun." (əl-Bəqərə, 143).

Söhbət ədalətli və yaxşı ümmətdən gedir. Çünki şeylərin yaxşısı orta olanıdır; ifratçılıq və natamamlıq qınanılan hallardır.

Laqeydlik pislənilir, çünki fərdin və kollektivin maraqlarını ayaqlar altına atır. İfratçılıq da məzəmmətlənir, ona görə ki, insan təbiətinə ziddir; insan təbiəti ifrata dözə bilmir. Odur ki ifrata varmağın həddi aşmağın ömrü həmişə qısadır. Bu səbəbdən Allah Təala islamın nəsibinə mötədil (orta) din olmağı yazmışdır. Allah insanı yaradarkən, ona öhdəlik yükləyərkən onun təbiətini, bacarıqlarını, zəif və güclü cəhətlərini nəzərə almışdır.

Müsəlman fərd özünü dünyadan onu yer üzünü abadlaşdırmaqdan[15], vəzifəsini yerinə yetirməkdən uzaqlaşdıracaq şə-

---

[15] Söhbət yer üzünün mənəvi və hüquqi cəhətdən abadlaşdırılmasından,

kildə tədric etməməlidir. Həmçinin o, dünyaya ac qurd kimi bağlanıb onun qulu olmamalıdır. Dünyaya mötədil və balanslaşdırılmış surətdə münasibət bəsləmək lazımdır.

İslamın mötədilliyi həyatın bütün sahələrində öz əksini tapmışdır. İslam sonuncu və hərtərəfli din olduğu üçün həyatın bütün sahələrinə dair hökmlər təqdim edir.

Biz, həmçinin dünyanın abadlaşdırılması işində, ruzi qazanma fəaliyyətində, ibadətlərdə, xərcləmədə, sosial münasibətlərdə, geyimdə, fərdin və kollektivin maraqlarının, vəzifə və hüququn, bədən və ruhun, zəka və könlün balanslaşdırılmasında mötədilliyin şahidi oluruq.

## Faydalar və zərərlər fiqhi

Allahın köməyi ilə islam işi yarım əsrdir ki, vüsət kəsb etmiş, üstünlük qazanmışdır. Bu, sevindiricidir, çünki Allahın dini yayılır, hakim olur. Həmçinin bu, narahatlıq və qorxu ilə müşayiət olunur, çünki dəvətçilərin çoxu şəriəti yaxşı bilmir, əxlaqi cəhətdən tərbiyəli, siyasi baxımdan şüurlu deyillər. Bu da bədniyyət və hiyləgər kimsələrə dəvətçilərin arasına sızmaq və onları düşüncəsiz işlərə bulaşdırmaq imkanı verir. Keçmişdə belə şeylər çox olub, indi də davam edir. Buna görə də dəvətçilərin başbilənləri hidayət tapmış kütlələrin araşdırma, tərbiyə və şüur sarıdan qayğılarına qalmalıdırlar. Bu istiqamətdə atılacaq addımlar dəvətdə yeni mövqelər qazanmaqdan daha mühümdür; onlar üsulşünaslıq elminin aşağıdakı qaydasını həyata keçirməlidirlər: "Əvvəlcə zərəri uzaqlaşdır, sonra fayda haqqında düşün"

---

deməli, haqqı bərqərar edib ədaləti yaymaqdan gedir. Qurani-Kərimin "Hud" surəsinin 61-ci ayəsinə işarə olunur: "O sizi (atanız Adəmi) yerdən (torpaqdan) yaradıb sizdən oranı abadlaşdırmağı istədi" – ***tərcüməçinin qeydi.***

## İlahi qanunauyğunluqlar fiqhi

Allahın qanunauyğunluqları (***sünən***) bitərəf və ümumi olub, hansı isə fərdə, qrupa, dinə yan çıxan, yaxud düşmən kəsilən qanunauyğunluqlar deyildir. Hər kəs bu qanunauyğunluqlar qarşısında bərabərdir. Kim bu qanunauyğunluqlara düzgün münasibət bəsləyərsə, qazanar, bəsləməzsə, itirər. Bu o deməkdir ki, Allah Təala sadəcə müsəlman olduqları üçün hansı isə fərdə, qrupa, camaata qələbə verməyəcəkdir; müsəlmanlar qələbə və uğur qazanmaq üçün səbəbləri nəzərə almalıdırlar.

## Tədricilik fiqhi

Sıçrayış deyil, tədricilik, özbaşınalıq deyil, inkişaf, həyəcan deyil, müdriklik, tələskənlik deyil, təmkin, sürətli “kəsilən” deyil, yavaş “davamlı” anlayışlarına əhəmiyyət verməliyik. Hədislərin birində deyilir: “Səfərdə yoldaşlarından ayrı düşən nə yol qət edər, nə də miniyə sahib olar (onu əldən çıxarar)”[16]. Başqa hədisdə oxuyuruq: “Allaha ən xoş gedən iş az olsa da, davamlı olan işdir”[17]. Üçüncü hədisə nəzər salaq: “Dini özü üçün çətinləşdirən elə kimsə yoxdur ki, din ona üstün gəlməsin”.

Biz aşağıdakı kəlamda öz əksini tapmış psixoloji müdrikliyi yaddan çıxarmamalıyıq: “Zaman müalicənin bir hissəsidir”.

---

[16] Bəzzar və Hakim rəvayət etmişlər. Peyğəmbər ibadətdə ifrata varan və gözləri yorğunluqdan çuxura düşən bir nəfəri gördükdə ona deyir: “Bu din möhkəmdir, ona yumşaqlıqla nüfuz et. Səfərdə yoldaşlarından ayrı düşən nə yol qət edər, nə də miniyə sahib olar (onu əldən çıxarar)”. Ərəblər arasında bu söz hansı isə bir şeyi ifrat formada istəyən, axırda, ifratı üzündən onu əldən çıxaran şəxs haqqında işlədilir – ***tərcüməçinin qeydi.***

[17] İmam Buxari rəvayət etmişdir.

## Mərhələlilik fiqhi

Mərhələlilik prinsipini, yəni məqsədlərin ümumi məqsədə xidmət edən ardıcıllıqda göstərilməsini mühüm hesab edirik. Bu prinsipə görə, birinci ikinciyə zəmin hazırlayır, ikinci birinciyə əsaslanır və sair.

Bacardığınız və şəraitə görə sizə uyğun gələn məqsədləri seçməlisiniz. Dəvətçilər bacarmadıqları məsələlərdə susmalıdırlar. Lakin heç bir halda dəvətçinin qarşısına məqsəd qoymamaq kimi seçimi yoxdur.

## Seçim fiqhi

İslama çağırmaq hər kəsə vacibdir. Bu iş şəriət ixtisası üzrə təhsil alanlarla – onların məsuliyyəti başqalarından çox olsa da – məhdudlaşmır.

Qeyd edək ki, islam hər kəsi: qorxaq və cəsur, xəsis və comərd, ağıllı və kütbeyin... olan hər kəsi ağuşuna basır, amma dəvət işi əhəmiyyəti və ciddiliyinə görə mürüvvəti, hörməti, cəsarəti, səbri, əzmkarlığı, ərənliyi, dürüstlüyü və başqalarını düşünmə şüuru olan şəxsiyyətlərə möhtacdır. Bu xüsusiyyətlərə sahib şəxslərə köklənməli, onları önə keçirməliyik. Dəvət işi məhz belə şəxslərin çiyinləri üzərində daşınır.

Bu o mənaya gəlmir ki, seçkin dəvətçilər səhv və çatışmazlıqdan uzaqdırlar – hər bir insan səhv edir – ; bu deməkdir ki, onlar ali keyfiyyətləri olan dəvətçilərdir: səhvə yol verdiklərində doğruya qayıtmağı bacarırlar. Onlar çoxu azdan, mahiyyəti formadan, substansiyanı aksidensiyadan üstün tutur, təhlükələr nə qədər çox olsa da, prinsiplərindən vaz keçmirlər.

Dəvət işində bu cür insanların sayının artması müvəffəqiyyətin müjdəçisi olacaqdır.

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Məkkədə islama çağırış işi çətinliklə üzləşdikdə islamı iki Ömərdən biri ilə güc-

ləndirməsi üçün Allaha dua etmişdi. Çünki Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onların hansı xarakterə sahib olduqlarını bilirdi. Bu dua ilə Ömər ibn əl-Xəttab – bu böyük və dahi səhabə müsəlman olmuş, islama böyük xeyir toxundurmuşdu.

Deməli, dəvət işində dəvətçilər seçilərkən hər kəsi salamlamaqla yanaşı, ali xarakteri olanlara diqqət verilməlidir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurmuşdur:

"İnsanlar (xarakter baxımından qızıl, gümüş... kimi) metalları xatırladırlar. Onların Cahiliyyət dövründə yaxşı olanları islamı qəbul etdikdən sonra da yaxşıdırlar, təbii ki, dini düzgün başa düşərlərsə!"[18]

## Fitnələrə münasibət fiqhi

Müsəlmanlar vaxtaşırı olaraq, müəyyən problem və şübhələrlə üz-üzə gəlirlər. Buraya Allah haqqında artıq-əskik danışmaq, Peyğəmbəri təhqir etmək, müsəlman azlıqlara, yaxud müqəddəs məkanlara təcavüz, ümmətin dəyişməz prinsiplərini ələ salmaq və sair daxildir.

Buna səbəb olan faktorlar müxtəlifdir: nifrət, ədavət, cəhalət, məşhurlaşmaq istəyi, ümmətin səmimi övladlarını taqətdən salmaq və onları lazımi fəaliyyətdən yayındırmaq və s.

Dəvətin başbilənləri bu fitnələri çeşidləməyi, səbəbləri, maraq və nəticələrini nəzərdən keçirməklə onlara münasibət bildirməyi bacarmalıdır. Onlar bu fitnələrin bir hissəsinə səssiz qalmalı, bir hissəsinə ad çəkmədən, amma ifşaedici cavab verməli, bir hissəsinə də ad çəkərək "həmlə" etməlidirlər. "Həmlə" zamanı hər şey diqqətlə ölçüb-biçilməli, artıq-əskik addımlar atılmamalıdır. Çünki artıq-əskik hərəkətlərə yol verilsə, bədniyyət adamların istədiyi baş tutacaqdır. Onlar bununla dəvət işinin enerjisini tükəndirmək, yeni fitnələrlə oyunu davam etdirmək istəyəcəklər.

[18] İmam Müslim rəvayət etmişdir.

# Altıncı mövzu

# Metodoloji problemlər

## İslam və dəvət işi

İslam dinini dəvət işindən fərqləndirmək lazımdır. İslam Allahın əbədi haqq dinidir, puçluq və yalandan uzaqdır. Dəvət işi isə bəşər əməyinin məhsulu olub, yanılmalardan xali deyildir.

Allahın dini müqəddəs olduğu halda, onun yolunda aparılan (dəvət) işi müqəddəs deyildir. İslamın müqəddəsliyi islam işinə məsumluq qazandırmır; islam işindəki səhvlərin islama aidiyyəti yoxdur, bu səhvlər onu qiymətdən salmır.

## Ən yaxşı metod

Dəvətdə ən yaxşı metod əvvəlcə islamın mahiyyəti və üsulları haqqında diqqətlə, aydın və ətraflı şəkildə məlumat verməkdir. Bu, islama çağırdığımız şəxsin düşüncə və vicdanında dinin möhkəmlənməsinə daha çox səbəb olur. Elə isə biz şübhələri sadalayıb onlara cavab verməklə, yaxud bununla əlaqəli fikirlər, məktəblər, ictihadlar haqqında danışmaqla işə başlamaqdan uzaq olmalıyıq. Əgər ehtiyac yaranarsa, belə suallara minimum dərəcədə, dəsti-xəttimizdən uzaqlaşmamaq şərti ilə cavab vermək olar.

## Ümumi dəvət

Kütlələri islama çağırarkən aksiomatik həqiqətləri təqdim etmək, fəqihlərin arasındakı fikir ayrılıqlarını, xüsusən şazz[19] rəvayətləri, qəribə yozumları, ikinci, üçüncü dərəcəli məsələləri, ehtimala açıq və qapalı fərziyyələri bir kənara qoymaq lazımdır. Bu məsələlərin öz yeri vardır; mütəxəssislər yeri gəldikcə dəqiq qaydalar çərçivəsində belə məsələləri müzakirəyə çıxarırlar. Kütlələrə və gənclərə gəlincə, faydalı işlərlə məşğul olmalıdırlar.

## Quranın prinsipləri istinad-mənbədir

Quranın prinsipləri müsəlman cəmiyyətində başlıca istinad-mənbə hesab olunur. İstinad mənbə kimi Quranın sabit, dəyişməz prinsipləri seçilir. Müsəlman cəmiyyəti qeyri-müsəlmanların müsbət təcrübələrini seçilmiş və mötəbər islam alimlərinin razılığı şərti ilə əxz edə bilər. Şəriətin göstərişlərini əsas olduğu üçün tənzimləyici göstərişlərdən üstün tutmaq lazımdır. Çünki tənzimləyici göstərişlər ikinci dərəcəlidir, vasitədir, Şəriətin göstərişləri isə məqsəddir.

## Təcrübələri davam etdirmək

Əvvəlkilərin təcrübələrini davam etdirməyə çağırırıq. Hər hansı təşkilat, mərkəz, məktəb, dəvətçi öz fəaliyyətində sıfırdan başlamır. O, Allahın dininə xidmətin pioneri deyildir və bu işdə sonuncu da olmayacaqdır.

---

[19] **Şazz**: hərf. anormal, qaydaya tabe olmayan, istisna. "Zəif" hədis növüdür. Bu və ya digər hədisin mötəbər ravisi həmin hədisin digər mötəbər ravilərinə müxalif davranarsa, belə hədis "şazz" adlanır. Hədisşünaslıq elminə VIII əsrdə Şö`bət ibn Həccac və Əbdürrəhman ibn Mehdi tərəfindən gətirilmişdir – ***tərcüməçinin qeydi***.

## Aydın yazılar

Dəvətlə əlaqəli yazılarımız aydın, dəqiq, hesablanmış olmalıdır. Müəllifin ideyası oxucuya aydın olmalı, hamı tərəfindən birmənalı qarşılanmalıdır. Bu məsələdə iki mühüm səmərə özünü göstərir: a) ideoloji və əməli anlayışların vahid korpusunu təmin etmək; b) dəvətçilər, xüsusən gənclər arasında ziddiyyətli ictihadlara, ifrat və laqeydliyə, hərc-mərclik və parçalanmalara aparıb çıxaran səhv yozumların, dolaşıqlıq və qeyri-müəyyənliyin qarşısını almaq.

## Dəqiq anlayışlar

Bizə xas anlayışların olmağına çalışmalıyıq. Bu anlayışların mümkün qədər quransayağı, dəqiq və aydın, həm də müstəqil olmağı lazımdır. Biz onları xüsusi etina ilə, müdrikcəsinə seçməli, müəyyən dövrlərin hakim ideologiyaları arxasınca qaçmamalıyıq. Məsələn, islamı sosializm intişar tapdıqda "sosialist", kapitalizm zirvəyə ucaldıqda "kapitalist", demokratiyanın ulduzu parladıqda "demokratik" deyə təsvir etmək olmaz.

İslam meyarları, dəyişməz prinsipləri baxımından islamdır. Bəzi prinsiplərinin hansı isə digər ideyalarla üst-üstə düşməsi ondakı universallıqdan irəli gəlir. Belə uyğunluq onu hansı isə ideoloji cərəyanla təsvir etməyimizə əsas vermir. Çünki islam əsas, ondan qeyriləri ikinci dərəcəlidir; islam sabitdir, ondan qeyriləri dəyişkəndir; islam mütləq həqiqətdir, ondan qeyriləri isə həqiqəti qismən əks etdirir.

Odur ki biz vaxtaşırı gündəmə gələn anlayışlara münasibətdə ehtiyatlı olmalıyıq. Onların görünüşü yaxşı, mahiyyəti isə çürük ola bilər. Elə olur ki, bəzi dəvətçilər bilmədən, yaxud kənar diktənin təsiri ilə belə anlayışlara aldanırlar.

## Təhlükələr barədə maarifləndirmə

Müsəlmanlar ta qədimdən hədəf seçilmişlər, çünki missiya və dəvət ümmətidirlər. Bu səbəbdən düşmənləri tərəfindən təhdid olunurlar. Çünki düşmənlərinin çoxu haqqa nifrət edir. Biz övladlarımızı bu təhdidlər barədə maarifləndirməliyik. Bu da öz növbəsində yaxınlaşmanı, ixtilafa "yox" deməyi zəruri edir. Unutmaq olmaz ki, hər kəs bu təhdidlərin hədəfidir. Təhdidlərdən xəbərsiz qalmaq daha da məhvedicidir. Təhdidlər iki növdür: xarici və daxili. Tarix sübut etmişdir ki, daxili təhdidlər daha dağıdıcı və qorxuludur.

## Həm ixlas, həm də sağlam düşüncə

İslam ixlas mövzusuna böyük əhəmiyyət verir. Çünki ixlas əməlin ruhu olub, onun Allah qatında qəbul olunmasının şərtlərindən biridir. İxlas olmadan edilən iş, şübhəsiz ki, puçdur. Amma ixlas kifayət etmir. Hansı isə iş ixlasla görülə bilər, amma doğru (düzgün) olmamağı mümkündür.

Odur ki ixlasla yanaşı, doğruya da çağırış etməliyik. İxlas və sağlam düşüncə uğurun açarıdır.

Dəvətçilər doğrunun əhəmiyyətini yüksək qiymətləndirib ona təşviq etməlidirlər; onlar ixlasa olduğu kimi düzgün düşünməyə də çağırmalıdırlar. Bu iki səbəbə görədir: a) doğruluq bir dəyərdir, uğurun şərti və yarısıdır; b) islam işində çalışanların əksəriyyəti xeyirxah və xoşniyyətlidirlər. Bu səbəbdən aldadılmaları, hansı isə işə bulaşdırılmaları olmuşdur və olacaqdır.

Bəzən onlar daha vacib sahə olduğu halda, az əhəmiyyətli meydanlarda zəhmət çəkib tər tökürlər. Bəzən isə lazımsız yerə zəhmət çəkirlər. Elə də olur ki, səhv yerdə fədakarlıq göstərirlər. Nəticədə yaratdıqları yeni şəraitin ilk qurbanları özləri olurlar. Və bu yeni vəziyyət əvvəlkindən pis olur.

## Normal həyəcan

Həyəcanlanma xeyir-bərəkətdir, çünki əzmkarlıq, fəallıq, təşəbbüs, fədakarlıq, rəqabət, altruizm, yaradıcılıq ruhunu alovlandırır. Bu keyfiyyətlər dəvət işinə təkan verir. Belə abı-hava olduqca iş qabağa gedir, olmadıqda zəifləyir. Bu baxımdan dəvətçilər həyəcan şöləsini alovlandırmağa adət etməlidirlər.

Amma iki mühüm məsələyə diqqət yetirmək lazımdır: Birincisi, həkim xəstə üçün dozanı necə müəyyənləşdirirsə, biz də həyəcanın dozasını o cür diqqətlə hesablamalıyıq. Dozanın artırılması, xüsusən gənclərdə qızğınlıq və emosional "yüklənmə" yarada bilər.

İkincisi, müdrik dəvətçi yanındakıların həyəcan yüklənməsini "boşaldacaq" əməli istiqamətlər müəyyən etməlidir. Onlar gücləri çatan işləri gördükləri üçün özlərini işəyarayan hesab edəcəklər; həmçinin etmədikləri işlərə görə vicdan əzabı çəkməyəcəklər, çünki həmin işlər onların bacarmadığı işlərdir. Odur ki həm sevinəcək, həm də sakitləşəcəklər, insanlar da onlardan faydalanıb xoşbəxt olacaqlar.

## İrəli atılmaq cəsarəti

Cəsarət dəvətçilərdə olmalı xüsusiyyətlərdəndir. Çünki dəvət işində onların ən mühüm silahı cəsarətdir. Cəsarət varsa, dəvət işi müvəffəqiyyət qazana bilər. Cəsarət yoxsa, müvəffəqiyyət də yoxdur. Amma cəsarət tədbirliliklə, təmkinlə, situasiyanın dəqiq şəkildə öyrənilməsi ilə müşayiət olunmalıdır. Belə olduqda cəsarət ağılsızlıq və ehtiyatsızlıq deyil, başlama (işə girişmə) və müdriklik cəsarəti olacaqdır.

## Geriçəkilmə cəsarəti

Lazım gəldikdə irəli getmək nədirsə, geri çəkilmək də odur. Buna ancaq və ancaq mötəbər avtoritet subyektlər qərar verə bilər. Həm irəliləmək, həm də geri çəkilmək üçün cəsarət göstərmək tərifəlayiq davranışdır. Amma geriçəkilmə cəsarəti irəliləmə cəsarətindən daha mühümdür. Ona görə ki, cəsarət tapıb irəliyə gedənləri alqışladıqları halda, geri çəkilmək cürəti göstərənlərə eyni münasibəti bəsləmirlər. Onları sıxışdırır, bəlkə də, söyüb ittiham edirlər. Amma belə şəxslər bütün bunlara uzaqgörənliklə fikir vermir, hisslərinə üstün gələrək düzgün qərarı verirlər.

Dahi səhabə Xalid ibn Vəlid Mö`tə döyüşündə cəsur davranaraq qoşuna geri çəkilmək əmri vermişdi. O düşünürdü ki, irəliyə getmək ordunu təhlükəyə atmaqdır, odur ki geri çəkilib Mədinəyə qayıtmışdı. O bunu təcrübəsinə görə, özündə cəsarət taparaq etmişdi. Həmin gün Mədinənin uşaqları döyüşdən geri çəkilənləri "qaçanlar" (***fürrar***) adlandırmışdılar. Amma Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onları "həmlə edənlər" (***kürrar***) adlandıraraq tərifləmişdi.

Mö`tə döyüşündə geri çəkilmək düzgün qərar idi. Xalid bu addımı atmış, təhlükəli olduğu üçün özündə cəsarət tapıb irəli getmək əmrini verməmişdi.

## Lazımi sakitlik

Həyəcanın müdrikliklə, emosiyanın təmkinlə, dünya işlərinə laqeydliyin həyatda məharətli olmaqla, yer üzünü abadlaşdırmaq işi ilə əvəzlənməsinə çağırış edirik.

## Adlara deyil, predmetlərə köklənək

Reallıq adlarda dəyişikliyi zəruri edirsə, dəvətçilər buna getməlidirlər. Təbii ki, alternativ ad predmetin mahiyyətini əks etdirməlidir.

Məsələn, erkən islam dövründə Təğlib qəbiləsi islam hakimiyyətini qəbul edir. Qəbilə xristian idi. Onlar cizyə ödəmək istəmir və bildirirlər ki, cizyəni sədəqə adı ilə verəcəklər. Onlar "cizyə" sözünü özləri üçün təhqir hesab edirdilər. Böyük xəlifə Ömər ibn Xəttab onların istəyi ilə razılaşır. Çünki qəbilə cizyə vergisini qəbul etdiyi halda, bu verginin adından xoşlanmamışdı. Həzrət Ömərin qəbilənin istəyini qəbul etməsi onun dahiliyinin göstəricisidir.

## Cəmiyyətimiz müsəlmandır, amma...

Cəmiyyətimiz Cahiliyyət deyil, müsəlman cəmiyyətidir. Cəmiyyətdəki çatışmazlıqlar, səhv icraatlar, bidətlər, sapmalar bizə onu Cahiliyyət kimi tövsif etmək haqqı vermir. Cəmiyyətdəki bu cür halları Cahiliyyət kimi təsvir etmək olar, amma bu, qismən Cahiliyyətdir.

Bilala: "Ay qaranın oğlu!" – deyən Əbu Zərrin bu davranışını Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə səciyyələndirmişdi: "Bu hərəkətdə bir az cahiliyyət vardır". Nəzakətli və diqqətcil olduğundan Əbu Zərrə: "Sən cahilsən!" – deməmişdi. Əksinə, Əbu Zərrin davranışında Cahiliyyət qalıqlarının olduğunu bildirən ifadədən istifadə etmişdi. Əbu Zərr bu sözün nə demək olduğunu anlayıb, Bilaldan üzr istəmişdi. Deməli, davranışındakı bir az cahiliyyət onu islamdan çıxarmamışdı.

Hazırda cəmiyyətimizin halı bu cürdür. Cəmiyyətdəki bəzi halları "Cahiliyyətə xas" kimi təsvir etmək düzgün olardı. Cahiliyyətin dərəcəsi situasiyadan situasiyaya, dövrdən dövrə, yerdən yerə dəyişir. Amma cəmiyyət müsəlman olaraq qalır.

Dəvətçilər buna diqqət yetirməli, cəmiyyətdəki xoşagəlməz halları aradan qaldırmağa çalışmalıdırlar. Onlar açıq şəkildə bildirməlidirlər ki, həmin halları aradan qaldırmaqla cəmiyyətin müsəlmanlığı daha da kamilləşir.

## Yenicə müsəlman olanlar

Hər müsəlman kiminsə islamı qəbul etdiyini eşitdikdə sevinir. Bəzən bu sevinc həddindən artıq olduqda aradan qaldırılması mümkün səhvlərə yol veririk. Həm özümüzün, həm də yenicə müsəlman olmuş şəxsin mənafeyi üçün, habelə mümkün səhvlərə yol verməmək naminə onun (islamı qəbul etmiş şəxsin – ***mütərcim***) niyyətindən, düşüncələrindən, dürüstlüyü və müdrikliyindən əmin olmalıyıq. Məhz bundan sonra ona islamı yaxşı öyrənsin deyə kömək əli uzatmalıyıq. Bununla da o, süni şəkildə "şişmə"yə məruz qalmayacaqdır. Əgər biz islamı yenicə qəbul etmiş kimsəyə maddi və mənəvi cəhətdən hədsiz iltifat göstərsək, ola bilsin, onu muzdluya, yaxud təkəbbürlü birisinə çevirək. Elə təkəbbürlü birisinə ki, özünü bizdən islamı öyrənən şagird deyil, bizə dini öyrədəcək ustad hesab edir.

## Qələbə və məğlubiyyət

Həm islam tarixinin, həm də dəvət işinin şanlı səhifələri vardır. Şanlı keçmiş gələcəkdə eyni şeyi təkrarlamaq cəhdini meydana çıxaran əməli təşviq rolunu oynadıqda müsbət yüklənməni ifadə edir. Yox, qürrələnmə ilə kifayətlənən passiv hadisəyə çevrildikdə mənfi yüklənmə rolunu oynayır. Eyni şeyi islam tarixi və dəvət işində yol verilmiş səhvlər haqqında da demək olar. Bu səhvlər ibrət götürdüyümüz təqdirdə, gələcəyə yaradıcı və əməli ruhla üz tutduqda faydalıdır. Amma ağlamaqla, bir-birimizi qınamaqla, özümüzü şallaqlamaqla kifayətlənsək, həmin səhvlərin zərərini görəcəyik.

## Fitnə və qırğın hədislərinə münasibət

İslam Allahın qoruduğu dindir. Gələcək, düşmənləri istəməsə də, onundur. Quran ayələri, hədislər, real müjdələr və gələcəyə dair əlamətlər bu deyilənləri təsdiqləyir.

Dəvətçilərin tam şəkildə buna ümidvar olmalıdırlar. Əvvəla, bu ümid həqiqi ümiddir. Həmçinin, bu onlara fəal surətdə çalışıb tərəfdar qazanmağa kömək edəcəkdir.

Qeyd edək ki, fitnə və qırğın hədislərinin böyük əksəriyyəti "zəif"dir. Ümmətin vəziyyətinin getdikcə pisləşməsindən bəhs edən hədislərin səhih olanları zaman, məkan və şəxslər baxımından xüsusi hədislərdir. Məhz bu xüsusilik onları yəqinlik xüsusiyyətindən məhrum edir. Belə hədislərdəki məzmunu ümumiləşdirmək son dərəcə səhvdir. Ona görə ki, belə səhv yozum qələbə vəd edən, mənaca aydın ümumi və mötəbər dini mətnlərə, ilahi qanunauyğunluqlara (***sünən***), keçmiş və indiki tarixi faktlara, Allahın ədalətinə ziddir. Yəni, Allah insanlara dinin qələbə çalmağı üçün çalışmağı tapşırır və onlara zəfər vəd edir, amma onlar (sözügedən hədislərdən) bu nəticəni çıxarırlar ki, məğlubiyyət qaçılmazdır.

Qayda budur ki, ayrı-ayrı hallar (cüz`iyyat) ümumi anlayışların (***külliyyat***), güman isə yəqinliyin əsasında nəzərdən keçirilməlidir. Biz fitnə hədislərinə düzgün münasibət bəsləyib, əmin olmalıyıq ki, islam Allah tərəfindən dəstəklənir və qələbə çalacaqdır.

## Gələcək islamındır

İslam Allahın dəstək verib kömək etdiyi dindir, çünki Səmanın bəşəriyyətə son mesajıdır. Allah islamı üstün etməyi söz vermişdir.

O da doğrudur ki, müsəlman ümməti vaxtaşırı olaraq zəifləmiş, amma təkanverici əqidəsi, geniş ərazisi, strateji mövqeyi,

zəngin təbii sərvətləri, demoqrafik artımı sayəsində zəifliyinə qalib gəlib hakim mövqeyini geri qaytarmışdır. Çoxəsrlik tarixi buna ən yaxşı sübutdur. Əgər belə müsibətlər başqa millətə tuş gəlsəydi, onu tamamilə məhv edərdi.

Dəvətçilər bu faktla insanlara müjdə verməlidirlər. Çünki belə müjdələr ümidsizliyi öldürür, ümid toxumları əkir, işləməyə, səbəblərin nəzərə alınmasına təşviq edir. Unutmayaq: Allah qələbəni əl-qolunu sallayıb oturanlara məccani vermir.

# Yeddinci mövzu

# Məqsədlər və vasitələr

## Məqsədlər və vasitələr

Başlıca məqsədlər dəyişməz qaldığı halda, ikinci dərəcəli məqsədlər keçid (mərhələli) səciyyə daşıyır. Vasitələrə gəlincə, dinamik olmalı, yenilənməlidir. Vasitələrdə alternativlər, növbənövlük və yenilənmə olmalı, müsəlman və qeyri-müsəlman təcrübəsindən istifadə edilməlidir. Çünki möminə hey müdriklik dalınca qaçmaq xasdır. Biz dəvət işində vasitələri seçərkən iki qaydanı nəzərə almalıyıq: birincisi, bu və ya digər vasitəyə həqiqi ehtiyac mövcuddur; ikincisi, müraciət edildikdən sonra həmin vasitənin müsbət cəhətləri mənfi cəhətlərindən çoxdur. Əks halda, həmin vasitənin seçilməsi yolverilməzdir. Ümumiyyətlə, məqsədlərin məqsəd, vasitələrin də vasitə olaraq qalmağı lazımdır. Məqsədlərin vasitələrə, vasitələrin də məqsədlərə çevrilməsi təhlükəlidir. Təəssüf ki, tariximiz və mədəniyyətimizdə bu hala rast gəlinir.

## İstedadlı və dərrakəli tələbələrə qayğı

İstedadlı, qabiliyyətli tələbələrin qayğısına qalmalıyıq. Onlar səmərəli alternativlər və gələcək təşəbbüslərdə tərəqqi və novatorluğun pionerləridir.

## Dialoq etikası (ədəb-ərkanı)

Dialoq sənəti və etikasını öyrənməyə çağırırıq. Çünki dialoq səmərəli dəvətin mühüm vasitələrindən biridir. Səmərəli dialoq qurmağı bacaran şəxs təbliğ etdiyi məsələlərin bacarıqlı vəkilidir.

## Ən pis (şey) məqsədəuyğun olarsa...

İnsanların fiqhi və təbliğ seçimləri şəraitə, vəziyyətə, elmi və düşüncə səviyyələrinə görə dəyişir. Bir şəxsin öz rəyi və seçimini – onu ən doğru hesab etsə də – başqalarına diktə etməsi hikmətdən deyildir. Doğruda həmrəyliyimiz daha doğruya görə ixtilafa düşməyimizdən yaxşıdır. Pisdə həmrəylik yaxşıda düşmənçilikdən daha məqsədəuyğundur[20].

## Lazımi sevinc

Lazımi həddə sevinmək, şənlənmək gənclərin kollektivlə ("camaat"la) əlaqəsini möhkəmləndirən mühüm vasitələrdəndir. Nəticədə gənclər kollektivin təəssübünü çəkir, ona səmimiyyətlə bağlanır, ideyalarını mənimsəyirlər. Bu səbəbdən biz şadlıq və sevincimizi müxtəlif yollarla ifadə etməyə çağırırıq. Məsələn, bayramlar, yeni dərs ilinin başlanması və başa çatması və sair buraya daxildir. Bunun üçün tədbirlər, mərasimlər keçirilməli, mahnılar oxunmalı, müsabiqələr təşkil olunmalı, idman yarışları keçirilməli, hədiyyə və mükafatlar verilməlidir...

[20] Söhbət müsəlmanların öz aralarında həmrəy, yaxud düşmən olmalarından gedir – ***tərcüməçinin qeydi.***

## Şübhəyə yox!

Uca Allah buyurur:

“(Ya rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et” (ən-Nəhl, 125);

“Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!” (əl-Ənkəbut, 46).

Nəzəri suallara, fərziyyə məzmunlu müzakirələrə, müstəsna müddəalara, köhnəlmiş ictihadlara, güman bildirən ehtimallara, boş mübahisələrə “yox” deyirik. Bütün bunlar vaxt, əmək və pul itkisidir, həqiqi məsuliyyətdən qaçmaqdır. Belə məşğuliyyət çox vaxt nifrət və kin-küdurətə səbəb olur. Yox, mübahisə və müzakirə qaçılmazdırsa, bu, Quranın göstərişinə uyğun olaraq, ən gözəl surətdə baş verməlidir.

## Ərəb dilinin əhəmiyyəti

Dil bilik və elmin qabı olduğu kimi islam mədəniyyətinin də maddi qabığıdır. Bu səbəbdən ərəb təfəkkürü, ümumi götürdükdə, şəriətin mətnlərini qeyri-ərəb müsəlman təfəkküründən daha düzgün başa düşmüşdü. Ərəb dili də digər dillər kimidir, amma digər dillərdən Allahın kitabının dili olmağı ilə seçilir. Allah peyğəmbərliyi kimə, nə vaxt, harada və hansı dildə verəcəyini yaxşı bilir. Həmçinin ərəb dili Sünnənin və islam mədəniyyətinin əsas korpusunun dili olmuşdur. Tarixi öyrəndikdə görürük ki, islam və ərəb dilinin birgə yayıldığı ərazilərdə bu din daha düzgün mənimsənilmiş, daha qalıcı olmuşdur. Hətta müsəlmanların siyasi hakimiyyəti zəifləyib yox olsa da, dinləri yaşamaqda davam etmişdir.

Bu səbəbdən biz ərəb dilinin dünyada, qeyri-ərəb müsəlman ölkələrdə yayılmasına səy göstərməliyik.

# Vasitə və məqsədlər vəhdətdə götürülməlidir

Dəvət fəaliyyətində başlıca məqsəd Allahın sözünü hakim etmək, insanları haqqa yönəltməkdir. Məqsəd ali və şərəfli olduğundan vasitələr də buna uyğun seçilməlidir. Bəli, təmiz vasitələr! Məhz bu bizi məşhur italiyalı siyasətçi Makiavelliyə aid edilən "Məqsədə çatmaq üçün hər vasitə icazəlidir" sözünə münasibətdə ehtiyatlı olmağa çağırır. Makiavellinin dediyindən başa düşürük ki, məqsəd alidirsə, vasitələrin alçaq olmağında qəbahət yoxdur. İslam bu cür yanaşmanı rədd edir. Təəssüf ki, bu deyim bəzi müsəlmanlar arasında yayılmış və məqbul hesab edilmişdir. Şübhəsiz ki, bu pisdir. Ən pisi isə budur ki, sözügedən deyim özlərini dəvətçi hesab edən bəzi ünsürlərin də rəğbətini qazanıb. Şübhə yox ki, bu deyimin tətbiqi fəlakətlərə səbəb olmuşdur. Dəvət işi bu yanaşmanı rədd etməli, özünü onu mənimsəmiş ünsürlərdən təmizləməli, belə tiplərin pak islam fəaliyyətinə sızmasının qarşısını hər bir vasitə ilə almalıdır.

# Səkkizinci mövzu

# Metodoloji təhlükələr (xoşagəlməz hallar)

## Missiyadır, peşə deyil!

Dəvət işi missiyadan peşəyə çevrildikdə forma məzmuna, ətalət fəallığa, fərdiyyətçilik kollektiv şüura, özlərini dəvətçi kimi qələmə verənlər əsil dəvətçilərə, riyakarlar dürüstlərə üstün gəlir. Bütün bunlar dəvət işi missiyadan peşəyə çevrildikdə bu və ya digər şəkildə özünü göstərir. Bu hallar müsəlmanları dəvət işində həvəsdən salır, dəvət işinin düşmənlərinin əlinə onun əleyhinə işlədəcəkləri güclü silah verir.

## Vahid rəhbərlik

Dəvət işində iki növ rəhbərlikdən ehtiyat etmək lazımdır. Birincisi üzdə görünən rəhbərlikdir, rolu və vəzifəsi formaldır, vitrin təsəvvürü bağışlayır. İkincisi gizli olub, əsil rəhbərlikdir, birinci rəhbərliyi idarə edir. Birincinin şəkli, ikincisinin isə əməli vardır. Məhz gizli rəhbərlik təkbaşına qərar verir, üzdə görünən rəhbərliyə diktə edir. Bu saxtakarlıqdır, dəvət işinin prinsiplərinə, xüsusən şura prinsipinə açıq-aşkar zidd getməkdir, qeyri-qanuni qərarlara legitimlik donu geydirməkdir; bu əsil diktatorluqdur. Belə idarəetmənin xüsusiyyəti budur ki, gizli rəhbərlik zahiri rəhbərliyə yuxarıdan aşağı, ikincisi isə birinciyə kinlə baxır; belə idarəetmə zahiri rəhbərliyi tərəfdarlarına zəif və titrək göstərir. Bütün bunlar ədavətə, kin-küdurət və uğursuzluğa səbəb olur. Belə ikili rəhbərliyi olan dəvət işi həmişə ağır bədəllər ödəmişdir.

## Dəyişiklik yalanları

"Dəyişiklik" sözü həm dəvətçilərin, həm də başqalarının şüarına çevrilmiş sözlərdəndir. Qeyd edilməlidir ki, dəyişiklik mütləq mənada yaxşıya aparıb çıxarmır; bəzən yeni alternativ, ümumiyyətlə insanlar, xüsusən dəvətçilər üçün olduqca pis nəticələr doğurur. Şair demişkən:

Olur ki (usanıb) ağladığım bu gün üçün
Sabah gəldikdə göz yaşı tökürəm.

Vaxtı ilə dahi səhabə Əmr ibn As demişdi: "Qəddar hökmdar davam edən hərc-mərclikdən (fitnədən) yaxşıdır". O, qəddar hökmdarları tərifləmirdi, amma alternativ axtarır, ehtiyatlı olmağın əhəmiyyətini vurğulayırdı.

## Əks-reaksiyalar

Düşüncə və davranış təhriflərinə bəzi islahatçıların verdikləri əks-reaksiyalar barədə xəbərdarlıq edirik. Onlar buna lazım olduğundan artıq qarışır, bəzən ifrata varır, bəzən də hədsiz məhdudlaşdırmalara əl atırlar.

## Düşüncə israfçılığı

İsrafçılıq həyatın bütün sahələrində xoşagəlməz nəticələrə aparıb çıxaran maliyyə çürüklüyüdür. Bu cəhətdən islam israfçılığa müharibə elan etmiş, onun cəmiyyətdə yayılmasını məhvə işarə edən xəbərdarlıq saymışdır. Elə isə dəvətçilər israfçılığa "yox" deməlidirlər.

Mübarizə aparmağımız tələb olunan ən təhlükəli israf növlərindən biri də bəzi dəvətçilər, yaxud özlərini dəvətçi sayan şəxslər arasında yayılmış düşüncə israfçılığıdır. Məsələn, biz

bu növ israfçılığa keçmişdə mövcud olan, bu gün isə ümmət üçün heç bir təhdid təşkil etməyən müəyyən cərəyan (məzhəb, qrup, firqə) haqqında kitab yazan, kitabını oxuduqda isə nə istədiyini başa düşmədiyimiz şəxslərdə rast gəlirik. Həmçinin belə şəxslər ideyalarına qətiyyən xidmət etməyən, mötəbər olmayan məlumatları toplayırlar. Onlar özlərinin fərqli və məlumatlı olmaları barədə oxucuda fikir oyatmaq istəyirlər. Habelə biz bu cür adamlara dolaşıq və qarmaqarışıq yazılar qələmə alanların timsalında rast gəlirik. Onlar nə demək istədiklərini heç özləri də bilmirlər.

Düşüncə israfçılığı maddi israfçılığa oxşayır. Səmimi və dürüst dəvətçilər ondan uzaq olmalıdırlar. Düşüncə israfçılığı vaxt, pul, zəhmət və savab itkisidir, məsuliyyətdən qaçmaqdır. O, bəzən sabotaj, bəzən də haqdan tədricən uzaqlaşma ola bilir. Niyyətin xoşluğu – əgər varsa – nəticəni dəyişmir.

## Təəssübkeşlik və tərəfkeşlik

Bir dəvətçinin istifadə etdiyi vasitələrə üstünlük verməsi təbiidir. Çünki həmin vasitələri üstün gördüyü cəhətlərinə görə seçmişdir. Amma o, bu və ya digər vasitənin mükəmməl olduğunu iddia etməməlidir, əks halda, başqalarının müraciət etdiyi vasitələrə qərəzli yanaşacaqdır. Bu, məqbul tərəfkeşlikdir. Dəvətçi bunun əksini edərsə, islamın haram saydığı və "Cahiliyyətdənqalma" deyə təsvir etdiyi mənfi təəssübkeşliyə yol verəcəkdir.

Yadımızdan çıxarmayaq ki, üstünlüyün meyarı təqva və yaxşı işdir. Bu da öz növbəsində zəruri edir ki, təəssübkeşliyin bütün formalarından (regional, irqi, məzhəb, nəsil...) imtina edilsin.

## Özünü üstün hesab etmək, lakin...

Möminin özünü batildən üstün görməsi tərifəlayiq davranışdır. Çünki bu onun könlü və ağlına hakim kəsilmiş təvəkkülün, dininin həqiqiliyinə olan inamın göstəricisidir.

Amma mömin özünü islama çağırdığı insanlardan üstün hesab edərsə, səhvə yol verər. Bu, təkəbbür olub, nəfsin kələklərindən biridir. Çünki təkəbbürlü insan başqalarından yaxşı olduğunu düşünür, özünü təcrid edir ki, onların "murdarlığ"ına, "cahilliy"inə, "alçaqlığ"ına bulaşmasın. Əgər birisi bu həddə gəlib çatmışsa, dəvətçi ola bilməz. Beləsi dəvətə yükdür.

Dəvətçi özünü islama çağırdığı kimsələrdən deyil, batildən üstün bilməlidir. O, Allaha şükür etməlidir ki, onu onlara xidmət göstərməklə şərəfləndirmişdir. Bunun üçün onları sevməli, onlara səbir göstərməli, onlardakı gizli xeyrə diqqəti çəkməlidir. Bununla da üstünlük anlayışı düzgün başa düşüləcək, nəfsin aldatmalarından xilas mümkün olacaqdır. Söhbət fərdin, yaxud qrupun deyil, haqq və prinsiplərin üstünlüyündən gedir.

## Din deyil, adətlər...

Bəzən bir sıra adət və ənənələr ağırlığı ilə seçilib din təsəvvürü bağışlayır, amma onların dinə aidiyyəti yoxdur. Biz bu halı şənlənmə və kədərlənmə hallarında, ictimai münasibətlərdə, xüsusən qadına münasibətdə müşahidə edirik. Deməli, ənənələrlə dini fərqləndirməli, adətlərə din əsasında nəzər salmalı, ya qəbul, ya da inkar etməliyik.

## Kifayətlənmə, yıxılma və süstlük

Elə dəvətçilər vardır ki, ümmətin şanlı keçmişinə üz tutur, hey onun haqqında danışır, onu tərifləyirlər. Amma bacardıq-

ları işi görmür və elə zənn edirlər ki, keçmişlə qürrələnməklə iş bitir. Onlar indinin formalaşması və gələcəyin qurulmasında iştirak etmədən keçmişə aidliklə kifayətlənirlər.

Bəzi dəvətçilər isə ümmətin indiki acınacaqlı halından hey şikayət edir, ağlayır, qınayır, məsuliyyəti bu və ya digər quruma yükləyir, amma bacardıqları işin qulpundan yapışmır və məsuliyyətdən yaxa qurtardıqlarını güman edirlər. Bununla da özlərini ümidsizlik və çəkişmələrin ağuşuna salır, həyatdakı vəzifələrini icra etmir, Allahın tapşırdığı varislik missiyasının fərqinə varmırlar.

Elə dəvətçilər də tapılır ki, heç bir iş görmədən mücəddid-imamın, yaxud Mehdinin, ilhamverici rəhbərin, xilaskar qəhrəmanın gəlməsini gözləyirlər. Elə düşünürlər ki, bu sadalananların gəlişi problemləri həll edəcək, arzuları gerçəkləşdirəcəkdir. Əlbəttə ki, onlar ümumi qanunauyğunluqları, bitərəf qanunları, mövcud prosesləri nəzərə almayan kimsələrdir. Onların mədəni fəallığı bununla da süstləşir, ali hakim dəyərdən – abadlaşdırma dəyərindən məhrum olur.

Əslində bu üç qrup insan daşıya biləcəkləri məsuliyyətdən qaçır, qeyri-məqbul üzrxahlıqlar irəli sürür, özlərini özləri ilə aldadırlar. Onlar dəvət işinə yükdürlər.

Zəruridir ki, müsəlman dəvəti işini, yaşadığı dövrü, nəyi bacarıb-bacarmadığını yaxşı bilsin, irili-xırdalı bütün vəzifələri ixlasla, bacarıqla icra etsin; dənə-dənə bol olar, dama-dama göl olar. Allah bəndələrindən ixlas və bacarıq gördükdə əməllərini qəbul edir, həcmi nə olursa-olsun, onu böyüdür. Bundan da ümmət qazanclı çıxır.

## Mənasız və qeyri-məhsuldar söhbətlər (görüşlər)

Nəfsin aldatmalarından biri də bəzi dəvətçilərin mənasız yerə görüşmələridir. Bu görüşlər səmərəsiz və mənasızdır.

Onlar toplaşır, Şərq və Qərbdən dəm vurur, bu və ya digər şəxsi, qurumu tənqid edir, hansı isə işə nifrət qusur, müəyyən məsələni təmənnasını edir, axırda da, bir iş görmədən dağılışırlar. Onlar Allahın dininə kömək etdiklərini düşünürlər. Onların etdiyi laqqırtı və naqqallıqla, çərənçiliklə özlərini aldatmaq, danışmaq ehtirasını öldürməkdir.

Onlar dinə xidmət etmək istədiklərini düşünürlər. Lakin bununla özlərini və bir-birlərini aldadırlar; ilahi riza badəsini bir-birlərinə ötürdüklərini zənn edir, həqiqi vəzifələrindən uzaqlaşır, acizliklərinə, mənfiliklərinə, naqqallıqlarına dini don geyindirirlər.

## Natamamlıq

Bir çox müsəlmanın, o cümlədən dəvətçinin din və dünya işlərindəki icraçılığı natamamdır. Bu hal Allahın bəxş etdiyi və onlara insanlara rəhbərlik edib, mədəniyyət qurucusu olmaq imkanı verən nemətlərlə (təkanverici əqidə, geniş sərvətlər, mühüm strateji mövqe, demoqrafik artım) ziddiyyət əmələ gətirir. Bu səbəbdən ümmətin başbilənləri problemi həll etməyə çalışmalı, müsəlmanları ətalətdən fəallığa, natamamlıqdan nailiyyətə daşımalıdırlar. Bu işdə onlara kömək edəcək məsələlərə ciddiyyət, yaradıcılıq, qiymətləndirmə, rəqabət, professionallıq, eyni imkanlar, təşkilatlanma işi, yaxşını təşviq, pisi sorğu-sual və əməyə sevgi daxildir.

## Məxfiliyin təhlükələri

Dəvət işində ört-basdıretmə, məxfilik və gizliliyin yolverilməzliyi barədə xəbərdarlıq edirik. Qeyd edək ki, islam bütöv, açıq-aydın dindir, bütün prinsipləri və ideyaları aşkar olub məxfilik və əlavələrdən uzaqdır.

Əqidənin aydınlığının öz gücü vardır, çünki insan qürrələndiyi şeyi elan edər. İnsanlar başa düşülən, aydın, aşkar ideyalara meyl edir, mübhəm, qaranlıq, məxfi ideyalardan qaçırlar.

Məxfiliklə əlaqəli səhvlər bizə düşməndən çox zərər vurur. Məxfilik dəvət işində gərginlik yaradır. Çünki səhvlər qaranlıqda edilmişdir, gözlə görülmür. Amma gündüz edilən səhvləri görmək və düzəltmək mümkündür.

## Ümumiləşdirmə təhlükəsi

Bir sıra dəvət ədəbiyyatında zərərli ümumiləşdirmə mərəzinə rast gəlinir. Məsələn, bildirilir ki, qeyri-müsəlman qüvvələri ancaq islamla müharibə birləşdirir; islamın düşmənləri hər şeyə qadirdirlər; rəsmi dəvət işi aldadıcı olub, müəyyən oyuna xidmət edir, zərərlidir, ondan ehtiyat etmək lazımdır; qeyri-rəsmi dəvət işi bütövlükdə yaxşıdır, mütləq doğrunu və xeyri ifadə edir; filan qrup islam ümmətini ancaq çöküşə, başqası isə tərəqqiyə doğru dartır; filan qrup başdan-ayağa xəyanət və sui-qəsdi təmsil edir, başqasında isə bu hallara qətiyyən rast gəlinmir və s. Belə düşüncə tərzi qərəzli olub obyektiv deyildir, sadəlövh və səthidir, hazır, tələsik, şablon hökmlərdən istifadə edir, alternativ və həll yolları axtarmaqdan, təşəbbüs göstərməkdən uzaqdır. Belə düşüncə sahibləri elə zənn edirlər ki, qarşısıalınmaz şər orduları ilə üz-üzə qaldıqları üçün əllərini-qollarını sallayıb oturmaqda qəbahət yoxdur. Əlbəttə ki, belə düşüncə tərzi qarşılıqlı dəfetmə qanununa ziddir. Müsəlman zərərli ümumiləşdirmədən uzaq olmalı, düşünməli, hisslərini ayıq tutmalı, təhlil bacarığını inkişaf etdirməli, səbəb və nəticələri başa düşməyə çalışmalı, həll yolları tapmalı və seçməyi öyrənməlidir. Əks halda, illüziyalara təslim olub, iki ziddiyyətdən birini seçmək məcburiyyətində qalacaqdır.

Başqaları ilə mübarizə və ortaq dil tapmaq qaydalarını öyrənməliyik. Əks halda, səhvlərimizi və acizliyimizi konspirasiya ilə əlaqələndirəcəyik.

## Konspirasiya

Son dövrdə əleyhdarları və tərəfdarları arasında konspirasiya haqqında söhbətlər çoxalmışdır.

Əslində konspirasiya ideyası bəşəriyyət yaradılandan vardır və olacaqdır. Amma hər şeyi konspirasiya ilə əlaqələndirmək din və məntiq baxımından düzgün deyildir. Bilməliyik ki, konspirasiya gah uğur qazanır, gah müvəffəqiyyətsizliyə uğrayır, gah da icraçılarının əleyhinə işləyir. Biz ona artıqlıq və əskikliyə yol vermədən, düzgün formada münasibət bildirməliyik. Bizdən tələb olunur ki, başqaları ilə mübarizə və ortaq dil tapmaq qaydalarına köklənək, əks halda, səhvlərimizi və acizliyimizi konspirasiya ilə əlaqələndirəcəyik.

Bizim üçün konspirasiyadan daha təhlükəli olan başqa bir şey vardır. Bu, konspirasiyadan bixəbərliyin, yaxud ona səhv münasibətin, ya da Allahın bizə nəzərə almağımızı əmr etdiyi səbəblərə etinasız yanaşmağın qurbanına çevrilməkdir.

## Faydalı ziddiyyətlər

Bəzi dəvətçilərə hakim kəsilmiş yanlış fikirlərdən biri budur ki, islam əleyhdarı qüvvələr daima ona qarşı vahid cəbhədə birləşirlər. Amma həqiqət bundan ibarətdir ki, həmin güclər islama qarşı bəzən birləşə bildiyi halda, bəzən də sözləri bir-birinə tərs gəlir. Onların tutduğu mövqe hərdən islam və müsəlmanların xeyrinə olur.

Müsəlman ziyalılar əks gücləri öyrənməli, onların öz aralarındakı ziddiyyətləri diqqətlə müəyyənləşdirməlidirlər. Onlar bu ziddiyyətlərdən maksimum dərəcədə istifadə etməlidir.

Ümumiləşdirmə xülyasına gəlincə, bu, Allah Təalanın qoyduğu qanunauyğunluqlara, keçmiş və indiki tarixi faktlara ziddir. Bu, həm də düşünmə tənbəlliyidir. Belə şəxslər ziddiyyətləri müşahidə edib həll yollarını müəyyənləşdirmək üçün ağıl işlətməyi istəmirlər. Həmçinin bu, nəfsin aldatmasıdır. Belə nəfsə sahib insanlar özlərini inandırmağa çalışırlar ki, qarşısı alınmaz düşmən güclər qarşısında heç nə etməmələri məqbuldur. Onlar bununla öz tənbəllik və qorxaqlıqlarına bəraət qazandırırlar.

# Son söz

XX əsrin axırlarında sosializm sistemi süqut etdi. Bu gün Qərb kapitalizmi ağır sınaqlardan keçir. Onun sübuta ehtiyacı olmayan ali müddəaları yerindən oynamışdır, əsasları sorğu-sual obyektinə çevrilmişdir. Hazırda Qərbdə müşahidə olunan odur ki, onun gücü zəifləyir, üstünlüyü tədricən azalır. İlahi qanunauyğunluqlar öz sözünü deyir, kiməsə güzəşt etmir.

İmkanları ilə bəşəriyyətin xilaskarına çevriləcək kimsə qalmamışdır! Bir siz qalmışsınız, ey islam dəvətçiləri! Dininizin səviyyəsinə yüksəlin! Dövrünüzlə ayaqlaşın! Belə olduqda gəminin kapitanına çevriləcək, həm özünüzə, həm də bəşəriyyətə yaxşılıq etmiş olacaqsınız!

Məsuliyyətiniz zaman, məkan, xalq, irq... tanımır. Çağırışınız lütfə dəvətdir, yüngül şəriətdir, çətinliyi aradan qaldırmaqdır, yer üzündəki bütün insanlarla mehriban davranmaqdır. Bunun üçün vəzifənizi yaxşı şəkildə dərk etməlisiniz.

Bilin ki, dəvətçisiniz, hökm kəsən deyilsiniz; islahatçısınız, avantürist deyilsiniz; dağıdan deyil, qurub-yaradansınız; kin bəsləyən deyil, mərhəmət göstərənsiniz; oğullarını sevən ata eşqi ilə çalışın; xəstələrini sevən həkimlər olun; qəzəbli həbsxana gözətçisi və intiqam atəşi ilə yanan incik küsəyən kimi hərəkət etməyin.

Əgər bu cür hərəkət etsəniz, haqq yolda olan və haqq yola çıxaran kimsələrdən olacaqsınız, Allahın bəndələrinə faydanız toxunacaqdır. İnsanlar Allahın "əhli-əyal"ıdırlar; Allaha ən əziz insan Onun əhli-əyalına daha çox fayda toxundurandır. Belə olduqda insanlar sizə onları xeyrə, işıq və sülhə aparıb çıxarmaq səlahiyyətini könüllü surətdə verəcəklər.

Bu kodeks təklif olunan qaydaların bir korpusunu özündə ehtiva edir. Bu qaydalar çoxillik təcrübənin, davamlı araşdırmanın, sınayıcı mühakimənin, bir-birini əvəzləyən praktika və əzab-əziyyətin səmərəsidir. Qaydaların dəvət işinin kodeksi, düşüncə və əməlin konstitusiyası olsun deyə ümumiyyətlə müsəlmanların, xüsusən onların müdriklərinin istifadəsinə verilməsi nəzərdə tutulmuşdur. Belə olduqda həmrəylik və fəaliyyət dairəsi genişlənib, ixtilaf və ətalət dairəsi daralacaqdır.

Ümid edirik ki, Kodeks islam adına çalışanlar tərəfindən diqqətlə öyrəniləcək, ixtisarlar, əlavələr, birləşdirmələr, təklif və düzəlişlərlə əlaqəli qeydlər təqdim ediləcəkdir.

Bizə yazmaq qərarına gəlmiş əziz qardaşlarımızın qeydlərini qayğıkeşlik, minnətdarlıq və qiymətləndirmə hesab edəcəyik. Onlardan istəyimiz budur ki, Kodeksə sanki özlərinin yazdığı əsər gözü ilə baxıb, nə mülahizələri varsa, bildirsinlər.

Aşkarlıq şəraitində fikirlərin irəli sürülüb müzakirəyə çıxarılması səhv və doğrunu müəyyənləşdirməyin ən ideal yoludur. Bu səbəbdən dəvətlə maraqlanan şəxslərin də diqqətini cəlb etmək, onların da Kodeksə dair düşüncələrindən faydalanmaq qərarına gəlmişik. Bu fikirlər Kodeksin məzmununu yaxşılaşdıracaq, onu mükəmməl vəziyyətə yaxınlaşdıracaqdır. Bununla da o, islam təşkilatları və cəmiyyətlərinin istifadəsinə verilməyə layiq olacaqdır. Bu onlarla hədiyyəmiz olsun. Hər təşkilat Kodeksdən münasib hissələri əxz edib onu əlavələrlə zənginləşdirə bilər. Həqiqətən, bunda çoxlu xeyir vardır.

Kömək və müvəffəqiyyət Allahdandır. Diləyimiz budur ki, Allah bizi Onun razılığını qazanmağa müvəffəq etsin, Ona itaət yolunda çalışdırsın! Həqiqətən, O, hər şeyə qadirdir!

**Kitab**, ümumiyyətlə müsəlmanları, xüsusən dəvətçiləri islama çağırış işinin etik davranış kodeksinə aid qaydalar və prinsiplərə əməl etməyə çağırmaqdan ibarətdir. Kodeks düşüncə və praktika mədəniyyəti normalarını özündə birləşdirir. O, daha çox məsələdə ortaq məxrəcə gəlməyi, fəaliyyət dairəsinin genişləndirilməsini, fikir ayrılıqları və səhvlərin minimuma endirilməsini təmin edə bilər.

**Kitabda** birlik və müxtəlifliyə əsaslanan mötədil dəvət fəaliyyətinin təsis edilməsinə cəhd göstərilir. Burada, bir tərəfdən, islamın dəyişməz əsaslarını dərk edən bazanın yaradılması və universal dünyagörüşünün formalaşmasında pay sahibi olan fikir və əqidə prinsiplərinin birliyi, digər tərəfdən, mədəni-humanist iştirakçılıq formatının müxtəlifliyi nəzərdə tutulur. Nəticədə müsəlman təfəkkürünə mədəni-ictimai yaradıcılıq və öz sözünü demək fürsəti verilir.

**Müəllif** bilik və təcrübəni, vicdan və strateji planlaşdırmanı vəhdətdə götürən yanaşma tərzinə çağırır. Belə yanaşma təbliğat mənzərəsini zaman və məkan aspektləri ilə təhlil etməyi, mədəni baxımdan öyrənməyi, mənəvi varislik və abadlaşdırma vəzifələrini icrada aktivliyi təmin edən, dəvət işini qabağa aparan bilik mexanizmləri və metodlarını tapmağı məqsəd güdür.

**Hişam Yəhya Talib**

1940-cı ildə İraqın Mosul şəhərində anadan olmuşdur. 1962-ci ildə Liverpul Universitetində elektrik mühəndisliyi, 1974-cü ildə Perdyü Universitetində (İndiana ştatı, ABŞ) eyni ixtisas üzrə doktorluq dərəcəsi almışdır.

Hişam Talib Şimali Amerikada İslamın yayılması işində fəal iştirak etmişdir, indi də edir. O, bir çox islam təşkilatının üzvü olmuş, 1975-77-ci illərdə ABŞ və Kanada Müsəlman Tələbələr Assosiasiyasının (MSA) büro direktoru vəzifəsində çalışmışdır. 1976-cı ildə Beynəlxalq İslam Tələbə Təşkilatları Federasiyasının (IIFSO) Baş katibi seçilən Hişam Talib Amerikada və kənarda bir çox təlim düşərgəsi və seminarlar təşkil etmişdir. 1981-ci ildə Beynəlxalq İslam Fikri İnstitutunun (IIIT) təsisçi-üzvlərindən biri olmuş, maliyyə direktoru seçilmişdir.

İyirmidən artıq dilə çevrilmiş "İslam işi mütəxəssisləri üçün təlimat kitabı", "İslama çağırış: öhdəlik əxlaqı", "Valideyn-uşaq münasibətləri" kitablarının müəllifidir.

Hazırda Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.

Rəsmi sayt: hishamaltalib.com

9 789952 844504